# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 22 (1504) ❖ Cümə, 3 iyul 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin iştirakçılarına

Sizi Azərbaycanda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı irəli sürdüyüm təşəbbüsün bu gün reallaşması məmnunluq doğurur.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə əlaqədar Türk Dünyası Həftəsinin Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi dövrünə təsadüf etməsinin xüsusi rəmzi mənası vardır.

Paytaxtımızın memarlıq incilərindən sayılan əzəmətli İsmailiyyə Sarayında dünya türkologiyasının görkəmli simalarını və məşhur tədqiqatçı alimlərini yüz il əvvəl bir araya toplamış Birinci Türkoloji Qurultay zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mövcud şəraitdə mədəni inteqrasiyasının məfkurə olaraq təşəkkül tapması baxımından müstəsna əhəmiyyət daşıyır.

Türk dünyasının ortaq mənəvi dəyərlərinin - dil, tarix, etnoqrafiya, ədəbiyyat və mədəniyyətin inkişafı və gələcəyi ilə bağlı vacib məsələlərin, xüsusən vahid ümumtürk əlifbasına keçilməsinin diqqət mərkəzində saxlanıldığı beynəlxalq miqyaslı bu unikal elmi-mədəni forumun o zaman məhz Azərbaycanda keçirilməsi təsadüfi deyildi. Azərbaycan XIX əsrdən etibarən köklü ictimai-siyasi və mədəni dəyişikliklər nəticəsində yeni tipli teatr, məktəb və ilk milli mətbu orqanı yaratmaqla milli özünüdərkin gerçəkləşməsinə zəmin hazırlamış, müsəlman və türk dünyasında artıq ilk demokratik dövlət qurmuşdu. Paytaxt Bakı şəhəri də hələ ötən əsrin əvvəllərindən özünün milli ruhlu ziyalılar nəslindən ibarət intellektual mühitinin yüksək səviyyəsi ilə seçilərək dünya türkologiyasının mötəbər mərkəzlərindən biri kimi tanınırdı.

Əfsuslar olsun ki, Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçirilməsinin qarşısı az sonra sovet totalitar idarə üsulu tərəfindən düşünülmüş formada süni maneələrlə alındı. Qurultay nümayəndələrinin əksəriyyətini isə məqsədli şəkildə 1930-cu illərdə amansız repressiyalara məruz qoydular. Onların xatirəsini bu gün də ehtiramla yad edirik.

Qurultayın obyektiv zərurətdən irəli gələn və bütün türk aləminin tərəqqisini nəzərdə tutan taleyüklü qərarları elmi-mədəni həmrəyliyimizin qorunub saxlanılmasında mühüm platforma rolunu oynamış, sərt sınaqlara tab gətirərək, 70 illik kommunist rejiminin süqutundan sonra milli müstəqillik əldə edən türk xalqlarının mədəni-mənəvi dirçəliş yollarını yenidən işıqlandırmışdır.

Əminliklə söyləyə bilərik ki, Türk Dövlətləri Təşkilatının ortaq humanitar məkan formalaşdırmaq üçün müasir mərhələdə uğurla gerçəkləşdirdiyi layihələrin bünövrəsində Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü mütərəqqi fikirlər dayanır.

Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Biz bu ailənin möhkəmliyi və sarsılmazlığı naminə var qüvvəmizi bundan sonra da əsirgəməyəcəyik.

İnanıram ki, Türk Dünyası Həftəsi müxtəlif formatda silsilə tədbirləri ilə parlaq tarixi-mənəvi irsimizin yaşadılmasına, öyrənilməsinə və təbliğinə töhfələr verəcək, mədəni həyatımızın əlamətdar hadisələri sırasında özünəməxsus layiqli yer tutacaq və yaddaşlarda silinməz iz qoyacaqdır.

*Hörmətlə,*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2026-cı il*

# Birinci Türkoloji Qurultay:

## Beynəlxalq konqresin iştirakçıları Ulu Öndərin məzarını ziyarət ediblər






**Bakıda təşkil olunan "Türk Dünyası Həftəsi" çərçivəsində keçirilən beynəlxalq konqresin iştirakçıları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər.**

Ulu Öndərin məzarı önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad olunub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət olunub.

Ziyarətdə Azərbaycanın və türk respublikalarının mədəniyyət nazirləri, Türk dünyasının aparıcı beynəlxalq təşkilatları - Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKPA, Yunus Əmrə İnstitutu və digər qurumların rəhbərləri, həmçinin müxtəlif ölkələrdən tanınmış türkoloq-alimlər və ekspertlər iştirak ediblər.

## Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin açılış mərasimi




**İyunun 29-da Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" başlanıb. Elm və mədəniyyətlə bağlı silsilə tədbirlərdən ibarət həftə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli Sərəncamına uyğun olaraq təşkil edilib.**

Heydər Əliyev Mərkəzində "Birinci Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi" mövzusunda beynəlxalq konqresin rəsmi açılış mərasimi keçirilib. Konqresdə türk respublikaları daxil olmaqla ümumilikdə 26 ölkədən rəsmilər, müxtəlif elmi mərkəzlərdən 126 türkoloq-alim, eləcə də türk beynəlxalq təşkilatlarından nümayəndələr iştirak ediblər.

Əvvəlcə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin iştirakçılarına müraciətini səsləndirib.

Açılış mərasimində, həmçinin Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan prezidentlərinin konqres iştirakçılarına müraciətləri oxunub.

Sonra Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli bildirib ki, Azərbaycan Birinci Türkoloji Qurultayın irsinə hər zaman böyük diqqət və ehtiramla yanaşır, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və müvafiq Sərəncamı ilə bu yubiley dövlət səviyyəsində qeyd olunur. Bu, Azərbaycan dövlətinin Türk dünyasının ortaq elmi və mədəni irsinə verdiyi yüksək dəyərin bariz nümunəsidir.

Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev çıxışında Birinci Türkoloji Qurultayın ideyalarının bu gün də Türk dünyasının inteqrasiyası və əməkdaşlığı üçün mühüm əhəmiyyət daşıdığını deyib.

Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov çıxışında Birinci Türkoloji Qurultayın Türk dünyasının elmi, mədəni və siyasi tarixində mühüm dönüş nöqtəsi olduğunu bildirib.

Çıxışlardan sonra Türk dünyasının tanınmış incəsənət ustaları və bədii kollektivlərinin iştirakı ilə konsert proqramı təqdim olunub.

Beynəlxalq konqres öz işini plenar iclas və panel sessiyalarla davam etdirib.

İyulun 3-dək davam edəcək "Türk Dünyası Həftəsi" Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Bakı Dövlət Universiteti, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun tərəfdaşlığı ilə gerçəkləşir.

# yüz ilin elmi və mədəni irsi

## *Akademik İsa Həbibbəyli:* Türk Dövlətləri Təşkilatı ilə elmi əlaqələr daha institusional müstəviyə qaldırılmalıdır






**İyunun 29-da Heydər Əliyev Mərkəzində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş ”Türk Dünyası Həftəsi”ndə keçirilən ”Türk dünyası bir ailə kimi: ortaq məqsədlər naminə beynəlxalq türk əməkdaşlıq təşkilatlarının fəaliyyətləri” mövzusunda plenar iclasda AMEA-nın prezidenti akademik İsa Həbibbəyli geniş məruzə ilə çıxış edərək əlamətdar yubileyin tarixi mənası və müasir perspektivləri barədə fikirlərini səsləndirib.**

Akademik diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixli Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi barədə Sərəncamı bütövlükdə Türk dünyasının inkişafında silinməz və unudulmaz səhifəyə çevrilmiş Birinci Türkoloji Qurultayın irsinə dövlətimiz tərəfindən verilən uca sevginin və yüksək qiymətin bariz ifadəsidir. Eyni zamanda, bu Sərəncam müasir türkoloji düşüncənin inkişaf etdirilməsinə və qardaşlıq birliyinə yönəlmiş çox güclü bir dəstəkdir.

AMEA rəhbəri qeyd edib ki, ötən əsrin əvvəlində, 1926-cı ildə baş tutmuş Birinci Türkoloji Qurultayda Türk dünyası ilə bağlı yalnız elmi-türkoloji istiqamətdə məsələlər müzakirə olunmayıb, burada həm də türk xalqlarının inteqrasiyası, gələcək birliyi, eləcə də ictimai və mənəvi-mədəni münasibətlərinin tənzimlənməsinə dair məsələlər gündəmə gətirilib.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, Birinci Türkoloji Qurultaya qədər də Türk dünyası, qədim türk abidələri və tarixi şəxsiyyətləri haqqında qiymətli tədqiqat əsərləri işıq üzü görməkdə idi. Lakin bu araşdırmaların demək olar ki, hamısı Qərb elmi mühitində orientalizm, Türk dünyasının daxilində isə fərdi müəlliflərin pərakəndə araşdırmaları kimi təqdim olunurdu: ”Türk dünyasına aid zəngin irsin məhz vahid, müstəqil və sistemli bir elm sahəsi kimi ”Türkologiya” adı altında birləşdirilməsi və təşəkkül tapması, Birinci Türkoloji Qurultayın bəşər tarixinə ən böyük xidmətlərindən və bu günümüzə ötürdüyü mühüm dərslərindən biridir. Qurultay ilk dəfə olaraq türkologiya elminin mükəmməl sistemini və modelini dünya elmi ictimaiyyətinə təqdim edib. Tarixi toplantıda yalnız dilçilik məsələləri ilə kifayətlənilməyib, eyni zamanda ədəbiyyat, folklorşünaslıq, müştərək tarix, etnoqrafiya, sənətşünaslıq, mədəniyyət tarixi, vahid terminologiya və əlifba məsələləri geniş şəkildə müzakirə olunub və müvafiq ortaq nəticələr əldə edilib”.

Akademik İsa Həbibbəyli məruzəsində AMEA ilə qardaş Türk respublikalarının elmlər akademiyaları arasında qurulan sıx tərəfdaşlıq əlaqələrinin praktiki nəticələrindən bəhs edib. İlk olaraq Azərbaycan-Özbəkistan elmi əlaqələrinə toxunan akademik, böyük mütəfəkkir Əlişir Nəvainin irsinin araşdırılması istiqamətində fundamental tədqiqatların aparıldığını diqqətə çatdırıb. Azərbaycanın dünya nəvaişünaslığında Özbəkistanın özü ilə rəqabət apara biləcək qədər zəngin bir elmi məkana çevrildiyini deyib.

Eyni yüksək səviyyəli və dinamik münasibətlərin Türkmənistan elmi mühiti ilə də qurulduğunu qeyd edən məruzəçi, türkmən ədəbiyyatının klassiki Məhtimqulu Fəraqinin irsinə dair Azərbaycanda aparılan araşdırmaların miqyasına diqqət çəkib. AMEA-da və bütövlükdə respublikada çap olunan tədqiqatların həcminin heç də Türkmənistan Elmlər Akademiyasının müvafiq nəşrlərindən geri qalmadığını vurğulayıb.

AMEA prezidenti qardaş Qırğızıstan dövləti ilə də ortaq elmi layihələrin uğurla icra edildiyini bildirib. Dünya şöhrətli yazıçı Çingiz Aytmatovun zəngin irsinin öyrənilməsi istiqamətində aparılan müştərək tədqiqatların artıq çoxsaylı fundamental nəşrlərə çevrildiyini qeyd edib.

Akademik İsa Həbibbəyli qarşıdakı dövrün ən əsas vəzifələrindən biri kimi məhz Türk Dövlətləri Təşkilatı və onun nəzdindəki qurumlarla elmi əlaqələrin daha institusional və çevik müstəviyə qaldırılması olduğunu deyib.

AMEA rəhbəri çıxışının sonunda qeyd edib ki, bu gün Türk dünyasını qlobal miqyasda öyrənən, təbliğ edən, elmi layihələrini dəyərləndirən və ən əsası, qardaş xalqlarımızı bir-birinə qovuşdurub əlaqələndirən bu cür möhtəşəm beynəlxalq təşkilatların mövcudluğu bütövlükdə 1926-cı ildə Bakıda toplanmış Birinci Türkoloji Qurultay iştirakçılarının və o dahi ideya müəlliflərinin ən böyük arzularının, ali məqsədlərinin reallığa çevrilməsi və tam qələbəsidir.

## *AMEA prezidenti:* Birinci Türkoloji Qurultay Türk coğrafiyasının ilk mənəvi xəritəsini cızdı






**İyunun 29-da Heydər Əliyev Mərkəzində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş ”Türk Dünyası Həftəsi”ndə Bakı Dövlət Universitetinin təqdimatında keçirilən ”Türk dilləri, ədəbiyyatları və tarixlərinin tədrisi müasir çağırışlar kontekstində” beynəlxalq konfransında AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyəti, Türk dünyasındakı elmi-mədəni inteqrasiya proseslərinə təsiri və ortaq əlifba məsələlərinə dair çıxış edib.**

Akademik qeyd edib ki, sovet siyasi sistemi və ideologiyası uzun illər boyu ”türk” sözünü qorxu və basqı altında saxlamış, bu ifadəni işlədənləri ”pantürkizm” damğası ilə təqib etmişdir: ”Belə bir ağır siyasi mühitdə keçirilən Birinci Türkoloji Qurultay, əslində, böyük bir cəsarət və elmi inqilab idi. İlk dəfə olaraq dünyanın 26 fərqli bölgəsindən gələn 131 nəfər türk ziyalısının bu möhtəbər məclisdə iştirak etməsi və öz vətənlərini, soylarını açıq şəkildə bəyan etməsi, türk coğrafiyasının ilk mənəvi xəritəsini cızmış oldu. Bu, Qurultayın ən böyük tarixi nailiyyətlərindən biridir”.

Akademik sibirli alim və nümayəndələrin, o cümlədən görkəmli türkoloq, akademik Vasili Radlovun Sibir türkləri haqqındakı tədqiqatlarının o dövrə qədər yalnız məhdud bir elmi dairəyə məlum olduğunu xatırladıb: ”Qurultay sayəsində bu böyük xəzinə üzə çıxarılıb, hətta Sibirdən gələn bəzi nümayəndələr məhz Bakıdakı elmi müzakirələr zamanı özlərinin qədim türk soyuna aid olduqlarını fəxrlə dilə gətiriblər”.

Qurultayda humanitar elmlərin ədəbiyyat, tarix, fəlsəfə, folklor, sənətşünaslıq və etnoqrafiya istiqamətləri üzrə ciddi məruzələrin dinlənildiyini deyən AMEA rəhbəri əsas ağırlığın dilçilik məsələlərinin üzərinə düşdüyünü bildirib. Rus və sovet türkologiya məktəblərinin nümayəndələrinin çıxışları tamamilə akademik prinsiplərə və türkologiyanın dərinləşməsinə xidmət edən tədqiqatlar kimi tarixə düşüb.

Akademik vurğulayıb ki, Qurultaydan yalnız 30 il sonra, 1960-cı illərin sonu, 1970-ci illərin əvvəllərində Nəsimi adına Dilçilik İnstitutunda Türkologiya şöbəsi yaradılıb, o vaxta qədər isə ölkədə bu adda rəsmi şöbə və ya kafedra mövcud deyildi: ”Türkologiya adlı ilk kafedra Türkiyədə və ya Orta Asiyada deyil, məhz Bakıda, Azərbaycan Dövlət Universitetində professor Fərhad Zeynalovun rəhbərliyi ilə fəaliyyətə başladı. Bu kafedra Bakının qısa müddətdə dünya türkologiyasının diqqət mərkəzinə və əsas elmi məkanına çevirdi”.

Akademik İsa Həbibbəyli 1926-cı il Qurultayının ortaq əlifba qərarını Türk dünyasının ortaq gələcəyinə yönəlmiş dahi bir addım kimi qiymətləndirib və keçmiş yazı sistemlərinin mənzərəsini vizual təsvir edib: ”O dövrdə Türk dünyasında vahid yazı sistemi yox idi. Bəzi türk xalqları yuxarıdan aşağıya doğru, ərəb qrafikasından istifadə edənlər isə sağdan sola yazırdılar. Qurultay ilk dəfə olaraq soldan sağa yazılış sistemini, yəni ürəkdən, düşüncədən birbaşa əmələ doğru gedən latın qrafikalı yazı sistemini bütün Türk dünyası üçün vahid və ortaq model kimi qəbul etdi”.

Akademik vurğulayıb ki, son illərdə aparılan səmərəli müzakirələr nəticəsində ortaq türk əlifbasının qəbul edilməsi istiqamətində atılan böyük addımlar Birinci Türkoloji Qurultayın müqəddəs ideallarının bu gün də yaşadığını və gələcəyimizi formalaşdırdığını açıq şəkildə sübut edir.

# “Türk Dünyası Həftəsi”nə

## AMEA-da "Türk dünyası və beynəlxalq elmi əməkdaşlıq" mövzusunda beynəlxalq elmi konfrans







**”Türk Dünyası Həftəsi” çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasında ”Birinci Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Tədbir Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Bakı Dövlət Universiteti, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun tərəfdaşlığı ilə gerçəkləşib.

Konfransda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdir müavini Məhərrəm Əhmədov, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AR mədəniyyət naziri Adil Kərimli, Qazaxıstan Respublikası Prezidentinin müşaviri Malik Otarbayev, Özbəkistan Respublikasının mədəniyyət naziri Ozodbek Nazarbekov, TÜRKSOY-un, Bakı Dövlət Universitetinin, Beynəlxalq Türk Akademiyasının, Türk Mədəniyyəti və İrsi Fondunun, Türk dünyasının Elmlər Akademiyalarının rəhbər şəxsləri, akademik qurumlarının nümayəndələri, millət vəkilləri, AMEA-nın elmi müəssisə və təşkilatlarının direktorları, əməkdaşları iştirak ediblər.

Əvvəlcə Birinci Türkoloji Qurultayın iştirakçılarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** iştirakçıları Birinci Türkoloji Qurultayın 100 il əvvəl keçirildiyi tarixi salondan salamlayaraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2025-ci il tarixli Sərəncamına əsasən ölkəmizdə və Türk dünyasının müxtəlif şəhərlərində Qurultayın 100 illiyinə həsr olunmuş silsilə tədbirlər keçirilir.

Akademik qeyd edib ki, yubiley tədbirlərinin zirvə mərhələsi ötən gün Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə yüksək səviyyədə təşkil olunub, bugünkü beynəlxalq konfransda isə 26 ölkəni təmsil edən nümayəndələr iştirak edirlər. Diqqətə çatdırıb ki, AMEA cari ilin 27 fevral tarixində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş silsilə tədbirlərə başlayıb. Bildirib ki, həm ilk tədbir, həm də bugünkü olmaqla, yubiley proqramında ümumilikdə 200-dən artıq alim və mütəxəssis iştirak edib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Birinci Türkoloji Qurultay 1926-cı il fevralın 26-dan martın 6-dək məhz bu tarixi salonda keçirilib. O bildirib ki, rəsmi nümayəndə heyətləri ilə yanaşı, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Hüseyn Cavid, Cəlil Məmmədquluzadə və Cəfər Cabbarlı da Qurultayın işində iştirak ediblər.

Akademik vurğulayıb ki, Birinci Türkoloji Qurultay təkcə coğrafi miqyasına görə deyil, müzakirə etdiyi problemlərin əhatə dairəsi və ictimai fikir tariximizdə tutduğu mühüm mövqeyə görə də türkologiya elminin ən möhtəşəm elmi hadisələrindən biri hesab olunur. Onun sözlərinə görə, Qurultayda dinlənilən məruzələr sonrakı dövrlərdə türkologiya elminin inkişaf istiqamətlərini müəyyənləşdirib.

AMEA prezidenti vurğulayıb ki, Birinci Türkoloji Qurultay ilk dəfə ”türkologiya” anlayışını müstəqil elmi termin kimi formalaşdıraraq elmi dövriyyəyə daxil edib və türkologiyanın sistemli elm sahəsi kimi inkişafının əsasını qoyub. O bildirib ki, sovet dövründə bu sahə məqsədli şəkildə yalnız dilçilik istiqamətində təqdim olunsa da, əslində türkologiya ədəbiyyat, tarix, folklorşünaslıq, fəlsəfə, etnoqrafiya, sənətşünaslıq, mədəniyyət və digər humanitar istiqamətləri özündə birləşdirən geniş elmi sahədir.

Akademik İsa Həbibbəyli müasir dövrdə Türk Dövlətləri Təşkilatının, Türk Mədəniyyəti və İrsi Fondunun, TÜRKSOY-un fəaliyyətinin türk dünyasının elmi və mədəni inteqrasiyasına mühüm töhfələr verdiyini bildirib. O vurğulayıb ki, Prezident İlham Əliyevin ”Türk dünyası bizim ailəmizdir” sözləri ölkəmizdə Türk dünyası istiqamətində həyata keçirilən siyasətin əsas ideoloji xəttini təşkil edir. Akademik qeyd edib ki, Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilən Zirvə tədbirində Prezident İlham Əliyevin təşəbbüsü ilə Birinci Türkoloji Qurultayın 100 illiyinin Türk dünyası miqyasında qeyd olunması barədə qərar qəbul edilib və ötən gün şahid olduğumuz kimi, Türk dövlətlərinin tarixində ilk dəfə olaraq beş dövlət başçısı yubiley münasibətilə tədbir iştirakçılarına təbrik məktubu ünvanlayıb.

Akademik İsa Həbibbəyli bildirib ki, AMEA-da 2025-2026-cı illərdə Birinci Türkoloji Qurultayın yubileyi münasibətilə 70-dən artıq elmi nəşr işıq üzü görüb. Akademik, həmçinin ortaq türk əlifbası əsasında Azərbaycanda ilk dəfə nəşr olunan antologiyanı nümayiş etdirib və Birinci Türkoloji Qurultayın biblioqrafiyasının çap olunduğunu iştirakçıların diqqətinə çatdırıb. Akademik vurğulayıb ki, bu gün Akademiyada türk xalqlarının ədəbiyyatı, tarixi, folkloru, fəlsəfəsi, incəsənəti və mədəniyyəti kompleks şəkildə öyrənilir.

Sonra çıxış edən **Türkiyə Elmlər Akademiyasının (TÜBA) prezidenti professor Müzəffər Şəkər** Türk dünyasının elm və mədəniyyətinə dair strateji baxışlarını açıqlayıb, yüz illik birgə elmi irsin əhəmiyyətini vurğulayıb. O, 100 il öncə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın Türk dünyasının ortaq elm tarixində ən mühüm dönüş nöqtələrindən biri olduğunu bildirib.

TÜBA prezidenti Birinci Türkoloji Qurultayda atılan əməli addımların Türk dilinin, tarixinin və mədəniyyətinin ortaq elmi baxışını müəyyən etdiyini və bu görüşün bir əsr sonra yenidən Bakıda davam etdirildiyini qeyd edib. O, bugünkü tədbirdə iştirakdan məmnunluğunu ifadə edərək 1926-cı ilin 26 fevral tarixindən 6 marta qədər Bakıda baş tutan mötəbər tədbirin akademik toplantı olmaqla yanaşı, Türk tarixinin sosio-mədəni sərhədlərini elmi şəkildə yenidən formalaşdıran bir oyanış yolu olduğunu diqqətə çatdırıb.

Konfransda çıxış edən **Albaniya Elmlər Akademiyasının İctimai və Albanologiya Elmləri Bölməsinin sədri, akademik Gezim Hoxha** bu mötəbər beynəlxalq elmi platformada iştirakdan məmnunluğunu ifadə edib, dəvətə və nümayəndə heyətlərinə göstərilən yüksək səviyyəli qonaqpərvərliyə görə Azərbaycan Milli Elmlər Akademiyası rəhbərliyinə dərin minnətdarlığını ifadə edib. Birinci Türkologiya Qurultayının elmi irsinin qorunub saxlanılmasının önəminə toxunan akademik Gezim Hoca qeyd edib ki, bu tarixi tədbir elmi tərəqqinin beynəlxalq əməkdaşlıq və müxtəlif elmi ənənələrə qarşılıqlı hörmət əsasında formalaşdığını aydın şəkildə nümayiş etdirir. Alim sözlərinə görə, elmin inkişafı yalnız milli sərhədlər daxilində deyil, məhz dialoq və ideyaların mübadiləsi mühitində mümkün olur.

**Türkiyənin Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun prezidenti professor Dərya Örs** çıxışında qeyd edib ki, Türk dünyası arasında əlaqələri gücləndirən əsas amil siyasi sərhədlər deyil, ortaq dil, mədəniyyət və mənəvi bağlardır. Onun sözlərinə görə, əvvəlki nəsillərin qoyduğu zəngin elmi və mədəni irsi qorumaq, onu daha da inkişaf etdirərək gələcək nəsillərə çatdırmaq hər bir türkoloqun vəzifəsidir.

**Qazaxıstan Prezidentinin müşaviri Malik Otarbayev** çıxışında bildirib ki, süni intellektin sürətlə geniş yayıldığı bir dövrdə gənclərin öz dilinə və milli mənəvi dəyərlərinə sahib çıxması olduqca önəmlidir. Malik Otarbayev qeyd edib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinin məhz onun keçirildiyi tarixi binada qeyd olunması rəmzi məna daşıyır və bu tarixi məkanda Türk dünyasının görkəmli alim və ziyalılarının yüz il əvvəl bir araya gələrək ortaq gələcək naminə fikir mübadiləsi aparması bugünkü iştirakçılarda dərin qürur və məsuliyyət hissi yaradır.

Tədbirdə çıxış edən **Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov** bildirib ki, 100 il əvvəl Bakıda Birinci Türkoloji Qurultayda əsası qoyulan ideyalar bu gün türk dövlətləri arasında əməkdaşlığın və həmrəyliyin möhkəmlənməsinə xidmət edir. Onun sözlərinə görə, müasir dövrdə hər bir xalq öz milli kimliyini, dilini və mədəni irsini qorumaqla yanaşı, ortaq türk dəyərlərinin yaşadılması istiqamətində də birgə fəaliyyət göstərməlidir.

Konfransda həmçinin **Xalq şairi Sabir Rüstəmxanlı, Ukraynadan dosent Tudora Arnaut, Moldova Qaqauz Komrat Dövlət Universitetindən Güllü Karangil** və başqaları çıxış edərək Birinci Türkoloji Qurultayın ideyalarının bu gün də yaşadığını, Türk dünyasının birliyinin və həmrəyliyinin qorunmasının, əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Sonda çıxış edən **AR mədəniyyət naziri Adil Kərimli** Birinci Türkoloji Qurultayın ruhunun bu gün də Türk dünyasını birləşdirdiyini, 1926-cı ildə bu tarixi binada toplaşan Türk dünyasının görkəmli alimlərinin, ziyalılarının və vətənpərvərlərinin yaratdığı mənəvi mühitin bu gün də hiss olunduğunu söyləyib. Qeyd edib ki, bu gün səslənən çıxışları dinlədikcə sanki yüz il əvvələ qayıdırıq: ”Hətta Qurultayın protokollarında əksini tapan çıxışlarla tanış olduqda həmin dövrün ab-havasını, bu divarlara hopmuş ruhu və enerjini hiss etmək mümkündür. Bu birlik ruhu, ortaq dəyərlər ətrafında formalaşan düşüncə bu gün də yaşayır”.

Nazir Adil Kərimlinin sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son illər Türk dünyasının ortaq tarixi və mədəni irsinin qorunması və təbliği istiqamətində ardıcıl addımlar atılır. Bu təşəbbüslər vahid mədəni məkanın formalaşmasına, türk xalqları arasında əməkdaşlığın daha da möhkəmlənməsinə mühüm töhfə verir.

Çıxışlardan sonra bir qrup alimə Birinci Türkoloji Qurultayın 100 illiyi münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən təsis olunmuş ”Birinci Türkoloji Qurultayın 100 illiyi (1926-2026)” xatirə nişanı təqdim edilib, xatirə şəkilləri çəkdirilib.

Tədbir öz işini panel iclasları ilə davam etdirib.

# Akademiya elminin töhfəsi

## Türk dünyası və beynəlxalq elmi əməkdaşlıq

**Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" çərçivəsində AMEA-da "Türk dünyası və beynəlxalq elmi əməkdaşlıq" adlı panel iclas keçirilib.**



Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədlinin moderatorluğu ilə baş tutan paneldə Qırğızıstan Respublikası Milli Elmlər Akademiyasının Çingiz Aytmatov adına Ədəbiyyat İnstitutunun direktoru, akademik Abdilacan Axmataliyev, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin baş elmi işçisi Qətibə Quliyeva, Qırğızıstan-Türkiyə Manas Universiteti Türk Dünyası Strateji Araşdırmalar Mərkəzinin direktoru, professor Süleyman Barbaros Yalçın, Ardahan Universitetinin rektoru, professor Öztürk Emiroğlu və Beynəlxalq Vizyon Universitetinin Balkan Araşdırmaları İnstitutunun dosenti Atilla Yorma Tapanı çıxış ediblər.

Çıxışlarda Türk dünyasında elmi əməkdaşlığın genişləndirilməsi, ortaq elmi tədqiqatların təşviqi, dil, tarix və mədəni irsin qorunması, həmçinin beynəlxalq akademik əlaqələrin inkişafı ilə bağlı məsələlər müzakirə olunub.

Konqres öz işini türkologiyanın aktual istiqamətləri, ortaq elmi irsin araşdırılması və gələcək əməkdaşlıq perspektivlərinə dair müzakirələrlə davam etdirib.

## Türk tarixinə baxış və ideoloji yanaşmalar

**Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" çərçivəsində "Türk tarixinə baxış və ideoloji yanaşmalar" mövzusunda panel iclası keçirilib.**



Panelə Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimova moderatorluq edib.

Müzakirələrdə türk tarixinin müxtəlif dövrlərinə elmi yanaşmalar, tarixşünaslıqda ideoloji baxışların rolu, ortaq tarixi yaddaşın formalaşması və Türk dünyasının elmi əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Paneldə Fateh Sultan Mehmet Vəqfi Universitetinin professoru Ahmet Taşağıl, Humboldt Universitetinin professoru Eva-Maria Aux, Osaka Universitetinin Humanitar Elmlər Tədqiqat İnstitutunun professoru Takasi Osava, Qafqaz Tarixi Mərkəzinin direktoru, dosent Rizvan Hüseynov, Türkiyə Qafqaz Universitetinin professoru Hacalı Necefoğlu və Özbəkistan Elmlər Akademiyasının Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutunun professoru Cabbor Eşonqulov çıxış ediblər.

İclasda türk naxışlarının ortaq mədəni yaddaşdakı rolu diqqətə çatdırılıb, həmçinin tarixdə "Türk" adını ilk dəfə rəsmi dövlət adı kimi istifadə edən Göytürk imperiyasının Azərbaycan türkləri də daxil olmaqla əksər müasir türk xalqlarının formalaşmasında əsaslı rol oynadığı qeyd olunub.

Bildirilib ki, türk naxışları yalnız estetik bəzək elementi deyil, xalqın minilliklər boyu formalaşmış dünyagörüşünü, mənəvi dəyərlərini və həyat fəlsəfəsini özündə yaşadan mühüm mədəni irsdir.

Diqqətə çatdırılıb ki, türkün ən böyük "kitablarından" biri məhz xalçalarda, kilimlərdə, memarlıq abidələrində və digər tətbiqi sənət nümunələrində qorunub saxlanılan naxışlardır. Naxış türk milləti üçün sadəcə estetik ifadə vasitəsi deyil. O, minilliklərin süzgəcindən keçərək günümüzə gəlib çatan ideoloji və simvolik kodlar sistemidir. Naxışlar türkün həndəsə dili ilə yazılmış yaddaşıdır.

Qeyd olunub ki, türk naxışlarının simvolik sistemi Göy Tanrı inancından başlayaraq İslam dövrünə qədər uzanan uzun mənəvi inkişaf yolunu əks etdirir. Xalçalarda yer alan həyat ağacı motivi kainatın sonsuzluğunu, nəsillərin davamlılığını və həyatın dövranını simvolizə edir.

Çıxışçılar türk xalqlarının ortaq tarixi irsinin araşdırılması, elmi tədqiqatların genişləndirilməsi, tarixi faktlara obyektiv yanaşmanın əhəmiyyəti və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Panel iclasının sonunda konqres iştirakçıları ilə xatirə şəkli çəkdirilib.

## AMEA-da "Rəqəmsal Türkologiya" mövzusunda panel iclası



**İyulun 1-də AMEA-nın Rəyasət Heyətində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş "Türk dünyası həftəsi" çərçivəsində "Rəqəmsal Türkologiya" adlı panel iclas təşkil edilib.**

Tədbiri giriş nitqi ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan "Türk dünyası həftəsi"nin elm və mədəniyyəti əhatə edən genişmiqyaslı silsilə tədbirlərdən ibarət olduğunu vurğulayıb.

"Türk dünyası həftəsi"nin Prezident İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamına uyğun olaraq təşkil edildiyini söyləyən AMEA rəhbəri bildirib ki, yubileyin dövlət səviyyəsində qeyd edilməsi Azərbaycanın Türk dünyasının ortaq elmi-mədəni irsinə verdiyi yüksək dəyəri açıq şəkildə nümayiş etdirir.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, 5 türk dövləti başçısının yubiley tədbirləri ilə bağlı təbrik məktubu ünvanlaması Prezident İlham Əliyevin beynəlxalq nüfuzunun və Azərbaycanın Türk dünyasında artan rolunun göstəricisidir.

O, "Türk Dünyası Həftəsi"nin əsas hadisəsinin Heydər Əliyev Mərkəzində keçirilən "Birinci Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi" mövzusunda beynəlxalq konqres olduğunu diqqətə çatdırıb. Konqresdə 26 ölkədən 200-dən çox türkoloq-alimin və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyini deyən alim bildirib ki, bu, Azərbaycanın elmi və intellektual mərkəz kimi artan beynəlxalq çəkisini təsdiqləyir.

Müasir dövrdə rəqəmsallaşmanın xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdıran akademik İsa Həbibbəyli qeyd edib ki, ölkədə rəqəmsal dövlət, elektron hökumət və süni intellekt istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, normativ-hüquqi baza formalaşdırılır. O, bu günlərdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclasının keçirilməsini bu prosesin sürətləndiyinin göstəricisi kimi dəyərləndirib. Alim AMEA-da da rəqəmsal inkişaf və süni intellektlə bağlı struktur islahatlarının aparıldığını qeyd edib.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, qarşıda duran əsas məqsəd rəqəmsal texnologiyaların və süni intellektin imkanlarının humanitar və ictimai elmlərin inkişafına sistemli şəkildə tətbiq edilməsidir. Müasir dövrdə ədəbiyyat, folklor, dilçilik, incəsənət və ümumilikdə türkologiya rəqəmsallaşma prosesindən kənarda qala bilməz.

"Rəqəmsal Türkologiya" paneli Birinci Türkoloji Qurultayın 100 illiyinə AMEA-nın yeni elmi düşüncəyə əsaslanan mühüm töhfəsidir", - deyə qeyd edən akademik İsa Həbibbəyli iclasın AMEA-nın institutlarında rəqəmsallaşma istiqamətində aparılan işlərin daha da dərinləşməsinə və sistemli inkişafına geniş imkanlar yaradacağını söyləyib. AMEA rəhbəri panelin elmi müzakirələr baxımından səmərəli olacağına əminliyini ifadə edərək, tədbirin işinə uğurlar arzulayıb.

Sonra AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev çıxış edərək Birinci Türkoloji Qurultayın bundan 100 il əvvəl məhz bu binada dövrün ən aktual elmi məsələlərini gündəmə gətirdiyini, bu gün isə dünyanın tamamilə yeni reallıqlarla üz-üzə olduğunu vurğulayıb. O, müasir çağırışlar fonunda konqres çərçivəsində "Rəqəmsal Türkologiya" panelinin təşkilini zəruri addım kimi dəyərləndirib.

Akademik Rasim Əliquliyev son illər türk dövlətlərinin rəhbərlərinin rəqəmsal inkişaf və süni intellekt məsələlərini strateji prioritet kimi ön plana çəkdiklərini və Türkistan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə bunu açıq şəkildə nümayiş etdirdiklərini bildirib. Qeyd edib ki, Prezident İlham Əliyevin 2024-cü il andiçmə mərasimində səsləndirdiyi "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır", - fikri bu istiqamətdə aparılan müzakirələrdə xüsusi önəm daşıyır.

Onun sözlərinə görə, müasir dövrdə xalqlar və dövlətlər yalnız real məkanda deyil, virtual mühitdə də rəqabət aparır, bu rəqabət bəzən informasiya müharibəsi səviyyəsinə yüksəlir və tarixi ziddiyyətlər rəqəmsal məkanda da öz əksini tapır. Akademik Rasim Əliquliyev çıxışında vahid virtual Türk dünyasının formalaşdırılmasının əhəmiyyətinə toxunaraq bildirib ki, ayrı-ayrı türk dövlətlərinin mövcud rəqəmsal resurslarının vahid platformada birləşdirilməsi, virtual Türk dünyasının arxitekturasının qurulması və onun kibersuverenliyinin təmin edilməsi artıq zərurətə çevrilib. Bu prosesdə humanitar sahə alimləri ilə yanaşı, texnologiya mütəxəssislərinin də fəal iştirakı vacibdir.

Vitse-prezident çıxışının sonunda bugünkü plenar iclası yeni yüzilliyin başlanğıcı kimi dəyərləndirib, müasir çağırışlar kontekstində Azərbaycan dövlətinin rəqəmsal siyasətinə uyğun olaraq AMEA-da da yeni elmi prioritetlərin formalaşdırılmaqda olduğunu diqqətə çatdırıb.

Plenar iclasda Türk Dünyası İş Adamları Birliyinin sədri Mehmet Fatih Danış çıxış edərək bu toplantının yalnız türkologiyanın keçmişini xatırlamaq məqsədi daşımadığını, eyni zamanda onun gələcəyini birlikdə qurmaq niyyəti ilə təşkil olunduğunu vurğulayıb. O, türkologiyanın Türk dünyasının ortaq yaddaşını, mədəniyyətini və kimliyini gələcəyə daşıyan ən mühüm intellektual körpülərdən biri olduğunu qeyd edib.

Daha sonra elmi məruzələr dinlənilib. AMEA Folklor İnstitutunun direktoru filologiya elmləri doktoru, dosent Hikmət Quliyev "Rəqəmsal türkoloji folklorşünaslıq: konseptual baxışlar və perspektivlər", AMEA Rəyasət Heyəti aparatının Rəqəmsal akademiya, süni intellekt və elektron xidmətlər şöbəsinin müdiri fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Fariz İmranov və həmin şöbənin baş mütəxəssisi Samir Ələkbərlinin "Rəqəmsal türkologiyanın yol xəritəsi: Ənənədən alqoritmə, alqoritmdən transformasiyaya doğru", Dilçilik İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini professor Məsud Mahmudovun "Rəqəmsal Azərbaycan dili: problemlər və perspektivlər", Ədəbiyyat İnstitutunun elmi işlər, rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini filologiya elmləri doktoru, dosent Mehman Həsənlinin "Rəqəmsal Ədəbiyyat İnstitutu: nəticələr və perspektivlər", Memarlıq və İncəsənət İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini sənətşünaslıq üzrə fəlsəfə doktoru Ramil Quliyevin "Rəqəmsal texnologiyalar və türk mədəni irsinin qorunması" mövzusunda məruzələri dinlənilib.

Bundan başqa, iclasda Əlyazmalar İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Xatirə Yusifova "Türkologiyada rəqəmsal mətnşünaslıq: mətnlərin elektron təhlili, korpus texnologiyaları və süni intellektin tətbiqi", Tarix və Etnologiya İnstitutunun şöbə müdiri tarix üzrə fəlsəfə doktoru Nigar Camalova "Azərbaycan tarixi və etnologiyasında süni intellekt alətlərinin tətbiqi problemləri", Arxeologiya və Antropologiya İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini tarix üzrə fəlsəfə doktoru, dosent Pərviz Qasımov "Rəqəmsal Arxeologiya: müasir təcrübə və hədəflər", Fəlsəfə və Sosiologiya İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Məhəmməd Cəbrayılov "Müasir geosiyasi şəraitdə Azərbaycanın rəqəmsal suverenliyi və milli təhlükəsizlik çağırışları" və Şərqşünaslıq İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Elnur Mustafayev "Rəqəmsal transformasiya dövründə şərqşünaslıq: ənənəvi tədqiqat modellərindən rəqəmsal humanitar tədqiqatlara keçid" adlı məruzələrlə çıxış ediblər.

Eyni zamanda, tədbirdə ETN İnformasiya Texnologiyaları İnstitutunun böyük elmi işçisi texnika üzrə fəlsəfə doktoru Əfruz Qurbanova "Türk dillərinin rəqəmsal transformasiyası və ortaq dil ekosisteminin formalaşdırılması problemləri", RH aparatının Rəqəmsal akademiya, süni intellekt və elektron xidmətlər şöbəsinin müdir müavini texnika üzrə fəlsəfə doktoru, dosent Həsən Nağıyev və şöbənin baş mütəxəssisi Kəmalə Zamanova "Hibrid NLP vasitəsilə Nizami Gəncəvinin farsdilli poeziyasında türk leksik elementlərinin aşkarlanması", Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin baş mütəxəssisi texnika üzrə fəlsəfə doktoru Tuncay Həbibbəyli və AMEA Rəyasət Heyəti aparatının Rəqəmsal Akademiya, süni intellekt və elektron xdmətlər şöbəsinin baş mütəxəssisi Həbibulla İmranov "Azərbaycan dili üçün akademik qayda əsaslı və mənbəli süni intellekt infrastrukturu (SUFİ AI)" adlı məruzələrini təqdim ediblər.

# “Türk Dünyası Həftəsi”nə Akademiya elminin töhfəsi

## Ortaq türk keçmişindən ortaq türk gələcəyinə






**İyulun 2-də “Türk Dünyası Həftəsi” çərçivəsində AMEA Folklor İnstitutu və tərəfdaş qurumların birgə təşkilatçılığı ilə Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş ”Türkoloji folklorşünaslıq: nəzəri konteksti, praktik yönləri və təhlil perspektivləri” mövzusunda VIII ”Ortaq türk keçmişindən ortaq türk gələcəyinə” Beynəlxalq Elmi Simpoziumu işə başlayıb.**

AMEA Mərkəzi Elmi Kitabxanasında keçirilən tədbirdə əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstü ziyarət olunub, Ulu Öndərin xatirəsi ehtiramla yad edilib, büstü önünə gül dəstələri düzülüb.

Açılış mərasimində çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bu mötəbər elmi toplantının Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd olunması ilə bağlı imzaladığı Sərəncamın icrasından irəli gələrək ”Türk Dünyası Həftəsi” çərçivəsində təşkil olunduğunu diqqətə çatdırıb. Alim simpoziumun həm tarixi məsuliyyət, həm də müasir elmi çağırışlar baxımından xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb.

Akademik İsa Həbibbəyli Azərbaycanda türkologiya elminin formalaşma və inkişaf yoluna nəzər salaraq qeyd edib ki, ölkəmiz bu sahədə zəngin elmi ənənələrə malikdir. Xüsusilə sovet dövründə Azərbaycan türkologiya elminin inkişafında bir sıra istiqamətlər üzrə öncül mövqedə olub. Türk dövlətləri arasında ilk türkologiya kafedrasının 1969-cu ildə Bakıda yaradılması bu elmi mühitin gücünün bariz göstəricisidir. Əlavə edib ki, həmin dövrdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan alimlərinin ana dili və milli-mədəni irslə bağlı çoxcildli elmi əsərlərinin dövlət mükafatları ilə təltif olunmasına göstərdiyi dəstək türkologiyanın institusional inkişafına mühüm töhfə verib.

Azərbaycanda türkologiya elminin müstəqillik illərində də ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdirildiyini deyən AMEA rəhbəri diqqətə çatdırıb ki, 100 il əvvəl keçirilmiş Birinci Türkoloji Qurultayda dünyanın 26 ölkəsindən 131 nümayəndə iştirak etmişdisə, bu gün yubiley tədbirləri çərçivəsində təşkil olunan konqres və simpoziumlarda 26 ölkədən 200-dən artıq tanınmış türkoloq-alim və beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər.

Akademiya prezidenti Birinci Türkoloji Qurultayın ən böyük tarixi xidmətlərindən birinin ”türkologiya” anlayışının elmi dövriyyəyə gətirilməsi olduğunu xüsusi vurğulayıb. Qeyd edib ki, məhz bu qurultay türkologiya elminin sistemli əsaslarını formalaşdıraraq tarix, coğrafiya, sənətşünaslıq, ədəbiyyat, folklorşünaslıq və etnoqrafiyanı müstəqil elmi istiqamətlər kimi müəyyən edib.

Alim türk dövlətləri ilə tarixi, mədəni və elmi əlaqələrin dərinləşdirilməsi istiqamətində dövlət siyasəti çərçivəsində AMEA-da görülən tədbirləri diqqətə çatdırıb Bildirib ki, bu məqsədlə AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi şöbəsi, Memarlıq və İncəsənət İnstitutunda Türk sənət tarixi və mədəni irsi şöbəsi yaradılıb, digər institutlarda da türkologiyanın müxtəlif aspektləri üzrə tədqiqatlar aparılıb, beynəlxalq konfrans və simpoziumlar təşkil edilib.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, ”Türk Dünyası Həftəsi” çərçivəsində keçirilən bu mötəbər tədbirlər elmi ictimaiyyət üçün bir bayram, türkologiya elminin təntənəsi kimi qəbul olunur və bu kimi tədbirlər sahənin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm platforma rolunu oynayır. AMEA rəhbəri bugünkü simpoziumun türkoloji folklorşünaslıq anlayışının elmi mahiyyətinin, nəzəri əsaslarının və praktik tətbiq imkanlarının dərindən öyrənilməsi baxımından son dərəcə aktual və əhəmiyyətli olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən UNESCO üzrə Türkiyə Respublikasının Milli Komissiyasının İdarə Heyətinin sədri Öcal Oğuz çıxış edərək türkologiyanın yalnız elm sahəsi deyil, türk dünyasının tarixi yaddaşını, mədəni kimliyini və dil birliyini yaşadan ümumbəşəri dəyər olduğunu vurğulayıb. Bildirib ki, bu kimi beynəlxalq elmi platformalar türk xalqlarının ortaq irsinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

İdarə Heyətinin sədri vurğulayıb ki, türk dünyasının güclənməsi yalnız regional miqyasda deyil, qlobal mədəni müxtəlifliyin zənginləşməsi baxımından da əhəmiyyətlidir. Bu prosesin dayaq nöqtələrini isə əsrlər boyu formalaşmış ortaq tarixi yaddaş, ortaq mədəni irs və ortaq dil ailəsi təşkil edir.

Sonra Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova çıxış edərək rəhbərlik etdiyi Fondun əsas fəaliyyət istiqamətlərindən bəhs edib.

Aktotı Raimkulova çıxışında xüsusi olaraq Azərbaycan Milli Elmlər Akademiyası ilə son illərdə qurulan səmərəli əməkdaşlıq əlaqələrinə də diqqət çəkib. Bildirib ki, bu əməkdaşlıq Akademiyanın prezidenti, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə ardıcıl və uğurla inkişaf edir və hər iki tərəf üçün mühüm elmi nəticələr ortaya qoyur.

UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birinci katibi Mustafa Şabanov bugünkü simpoziumun Birinci Türkoloji Qurultayın 100 illiyi ilə bağlı keçirilən tədbirlər sırasında xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. Vurğulayıb ki, Bakıda ”Türk Dünyası Həftəsi”nin təşkili türk dünyasının elmi, mədəni və mənəvi birliyinin keyfiyyətcə yeni mərhələyə daxil olduğunu göstərir.

Mustafa Şabanov qeyd edib ki, müxtəlif coğrafi ərazilərdə yaşayan türk dünyası ölkələrinin irsi ortaq tarixi yaddaş, dil qatları, dastan və mərasim ənənələri, sənətkarlıq və milli dəyərlər üzərində formalaşıb.

Mustafa Şabanov çıxışında Füzuli irsi ilə bağlı diqqətçəkən bir tapıntıya da toxunub. Bildirib ki, ötən ilin əvvəlində Bakıda təsadüfən aşkar olunan bir əlyazma Məhəmməd Füzulinin Türk-Azərbaycan dilində yazdığı 300-dən çox qəzəl və digər poetik nümunələri ehtiva edir. İlkin müşahidələrə əsasən, əlyazma XVIII əsrin sonu - XIX əsrin əvvəllərinə aid edilir və bəzi mətn fərqlilikləri ilə seçilir. Bu tapıntı barədə AMEA-nın müvafiq qurumlarına məlumat verildiyini, əlyazmanın isə AMEA-da elmi tədqiqata cəlb olunması üçün əldə edildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, bu irsin beynəlxalq əməkdaşlıq çərçivəsində araşdırılması və elmi ictimaiyyətə təqdim edilməsi məqsədəuyğundur.

Tədbirdə həmçinin millət vəkili Hikmət Babaoğlu, M.Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutunun direktoru akademik Kenjexan Matıjanov Hacettepe Universitetinin professoru, dr. Özkul Çobanoğlu, Ege Üniversiteti, Türk Dünyası Araştırmaları İnstitutunun professoru, dr. Metin Ekici, Özbəkistan Elmlər Akademiyasının Özbək Dili, Ədəbiyyatı və Folklor İnstitutunun professoru, dr. Jabbor Eshonqulov, Nevşehir Hacı Bektaş Veli Universitetinin professoru, dr. Bayram Durbilmez, AMEA Folklor İnstitutunun direktoru, f.e.d. Hikmət Quliyev çıxış ediblər. Çıxış edənlər simpozium çərçivəsində aparılan elmi müzakirələrin ortaq türk elmi düşüncəsinin formalaşmasına və gələcək nəsillərə ötürülməsinə mühüm töhfələr verəcəyinə əminliyini ifadə ediblər, simpoziumun işinə uğurlar arzulayıblar.

Qeyd edək ki, iyulun 3-dək davam edəcək simpoziumda Azərbaycan və xarici ölkələrdən olan alimlər türkoloji folklorşünaslığın nəzəri və praktik məsələlərini, eləcə də türk xalqlarının ortaq mədəni irsinin qorunması və öyrənilməsi istiqamətlərini müzakirə edəcəklər.

## AMEA-da "Türkoloji sənətşünaslıq" mövzusunda diskussiya paneli







**AMEA-nın Rəyasət Heyətində “Türk Dünyası Həftəsi” çərçivəsində ”Türkoloji sənətşünaslıq” mövzusunda diskussiya paneli keçirilib.**

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan ”Türk Dünyası Həftəsi”nin açılış mərasiminin yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. Akademik qeyd edib ki, nüfuzlu türk elmi mərkəzlərindən gələn rəhbər nümayəndələrin iştirakı ilə reallaşan bu tədbirdə 6 qardaş ölkədən rəhbər şəxslər təmsil olunub, eləcə də rəngarəng birgə bədii-musiqi proqramı geniş tamaşaçı auditoriyasına təqdim edilib. Eyni zamanda, açılış mərasimindən sonra seksiyalar üzrə davam edən iclaslarda rəsmi nümayəndələrin, tanınmış türkoloq alimlərin məruzələrində olduqca maraqlı mövzulara toxunulub, türkologiyanın inkişaf perspektivləri və bu istiqamətdə təşəbbüslər irəli sürülüb.

Sonra Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə rəhbərlik etdiyi elmi müəssisədə aparılan türkoloji tədqiqatlardan danışıb. Beynəlxalq Türk Akademiyasının təşəbbüsü ilə 2014-cü ildə Astanada nəşr olunan ”Türk Sənəti Antologiyası” layihəsində Azərbaycanın geniş şəkildə təmsil olunduğunu deyən Ərtegin Salamzadə institutun əməkdaşlarının bu işdə fəal iştirak etdiyini bildirib. Həmçinin Türk Dövlətləri Başçılarının Bişkekdə 11-ci Zirvə Görüşündə qəbul edilmiş qərarlara əsasən hazırda tərtib olunan çoxcildlik ”Türk xalqlarının mədəniyyət tarixi” kitabının ikinci cildi üçün də institut mütəxəssisləri tərəfindən Azərbaycanın şəhərsalma, memarlıq, təsviri incəsənət, musiqi və kino tarixinə aid xüsusi bölmələrin işlənildiyini diqqətə çatdırıb.

Azərbaycan irsinin Türk dünyasında təbliği istiqamətində beynəlxalq əlaqələrin mühüm rol oynadığını vurğulayan institut rəhbəri, türkoloji tədqiqatların genişləndirilməsi çərçivəsində Özbəkistanın Kəmaləddin Behzad adına Milli Rəssamlıq və Dizayn İnstitutu, həmçinin Qazaxıstanın köçəri mədəniyyətini araşdıran qurumları ilə birgə elmi layihələrin uğurla icra olunduğunu bildirib.

Sonda institutun Türkiyənin Aydın Adnan Menderes Universiteti ilə uzunmüddətli tərəfdaşlığına toxunan institutun direktoru, bu əlaqələrin beynəlxalq simpoziumlarda mütəmadi təmsilçiliklə xarakterizə olunduğunu bildirib.

Daha sonra diskussiya panelində ”Musiqi türkologiyasının əsasları”, ”Azərbaycan incəsənətində Atatürk obrazı”, ”Türk təsviri sənətində Dədə Qorqud obrazı”, ”Türk miniatürlərində kompozisiya həllinin bədii prinsipləri”, ”Türklərin dekorativ-tətbiqi sənəti”, ”Azərbaycan və Anadolu xalçaları və tekstilində oxşar motivlər”, ”Koroğlu - Türk xalqlarının nəğməkar bahadırı kimi”, ”Azərbaycan-Özbəkistan teatr əlaqələri”, ”Cümhuriyyət dövrü İstanbul memarlığı” və ”Azərbaycan və Tatarıstan mədəni əlaqələri” mövzularında məruzələr dinlənilib.

# AMEA ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında elmi əməkdaşlıq

## Akademiyada Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin nümayəndələri ilə görüş

**AMEA-nın Rəyasət Heyətində Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Covanni Çezare Paqatzi, Vatikan Apostol Kitabxanasının icraçı rəhbəri Mauro Mantovan və Vatikan Apostol Arxivinin icraçı rəhbəri Rocco Ronzani ilə görüş keçirilib.**




AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə çıxış edən akademik İsa Həbibbəyli bildirib ki, müasir Azərbaycanın beynəlxalq nüfuzunun formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olub, Ulu Öndər müstəqil dövlətçiliyimizin möhkəm təməllərini yaradıb. Vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişafının yeni mərhələsinə qədəm qoyub və bu gün ölkəmiz sürətlə inkişaf edir, dünyada söz sahibi ölkələrdən biri kimi qəbul olunur.

AMEA rəhbəri diqqətə çatdırıb ki, Azərbaycan uzun illər Ermənistanın işğalçılıq siyasətinə məruz qalıb, Qarabağda tarixi, dini və mədəni irsə ciddi ziyan vurulub, məscidlər və qəbiristanlıqlar dağıdılıb. O, Qarabağ Zəfərinin Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş tarixi qələbə olduğunu vurğulayıb, hazırda Qarabağda müasir tələblərə cavab verən genişmiqyaslı bərpa və quruculuq işlərinin həyata keçirildiyini bildirib.

Akademik İsa Həbibbəyli Azərbaycan ilə Vatikan arasında əməkdaşlığın yüksək səviyyədə inkişaf etdiyini diqqətə çatdıraraq, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Müqəddəs Taxt-Tacla əlaqələrə xüsusi önəm verdiklərini söyləyib.

Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin inkişafında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun mühüm xidmətlərinə toxunan akademik İsa Həbibbəyli bildirib ki, Fond dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi layihələrlə Azərbaycanın tarixi və mədəni irsinin tanıdılmasına mühüm töhfələr verir. AMEA rəhbəri ötən ilin sentyabr ayında Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası, Vatikan Apostol Kitabxanası və Vatikan Apostol Arxivi arasında Anlaşma Memorandumunun imzalandığını xatırladıb, bu sənədi böyük etimad və məsuliyyət nümunəsi kimi dəyərləndirib. O, imzalanmış memorandumun elmi araşdırmalar üçün yeni imkanlar açdığını, layihə çərçivəsində artıq AMEA-nın Tarix və Etnologiya İnstitutunun bir əməkdaşının 6 aylıq müddətə Vatikana ezam olunacağını qeyd edib.

Akademik İsa Həbibbəyli birgə əməkdaşlıq çərçivəsində ilkin olaraq Vatikan Apostol Kitabxanası və Apostol Arxivində saxlanılan Azərbaycana dair arxiv materialları, əlyazmalar və sənədlərin kataloqunun hazırlanmasının əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, bu istiqamətdə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu və AMEA-nın Mərkəzi Elmi Kitabxanasının zəngin təcrübəsi var. Onun sözlərinə görə, bu kataloq gələcək tədqiqatçılar üçün mühüm elmi mənbə rolunu oynayacaq. Bildirib ki, hazırda əsasən tarix sahəsində araşdırmalar aparılsa da, fondlarda ədəbiyyat, incəsənət, mədəniyyət və digər istiqamətlər üzrə də zəngin materiallar mövcuddur. O, bu istiqamətdə hər iki tərəfin mütəxəssislərinin birgə fəaliyyətinin səmərəli nəticələr verəcəyinə əminliyini ifadə edib.

Akademik İsa Həbibbəyli Vatikan fondlarında qorunan materiallar əsasında hazırlanacaq əsərlərin Azərbaycan elminin inkişafına və dünya elminə yeni töhfələr verəcəyini söyləyib.

Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Covanni Çezare Paqatzi də öz növbəsində qonaqpərvərliyə görə minnətdarlığını bildirib, ölkəmizdə olmaqdan məmnunluğunu dilə gətirib. O, anlaşma memorandumunun imzalanmasına görə Heydər Əliyev Fonduna və Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirinə minnətdarlığını ifadə edib.

Vatikan Apostol Kitabxanası və Apostol Arxivində zəngin materialların, kitabların, əlyazmaların, sənədlərin qorunduğunu deyən Covanni Çezare Paqatzi memorandum çərçivəsində birgə real layihələrin həyata keçirilməsinin zəruriliyinə toxunub.

Qonaq Vatikan Apostol Kitabxanası və Apostol Arxivində saxlanılan Azərbaycana dair arxiv materialları və sənədlərin kataloqunun hazırlanması təşəbbüsünü dəstəkləyib, bu addımın gələcəkdə aparılacaq tədqiqatlar zamanı alimlərin işini asanlaşdıracağını söyləyib.

Görüşdə, həmçinin Vatikan Apostol Kitabxanasının icraçı rəhbəri Mauro Mantovan və Vatikan Apostol Arxivinin icraçı rəhbəri Rocco Ronzani də çıxış edərək Bakının tarixi memarlığından heyran qaldıqlarını, Azərbaycan alimləri ilə əməkdaşlıqda maraqlı olduqlarını bildiriblər. Qeyd ediblər ki, inventarlaşdırma, kataloqun hazırlanması və digər istiqamətlərdə bilik mübadiləsi gələcək əməkdaşlığımız üçün faydalı olacaq.

Çıxışlardan sonra qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib. Qonaqlar, həmçinin AMEA-nın Rəyasət Heyətinin binası ilə də tanış olublar.

Görüşdə Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi, millət vəkili Soltan Məmmədov da iştirak ediblər.

Qeyd edək ki, ötən ilin sentyabrında Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında anlaşma memorandumu imzalanıb. Memorandumu Müqəddəs Taxt-Tacda Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Covanni Çezare Paqatzi imzalayıblar.

## Vatikanlı qonaqlar AMEA-nın Əlyazmalar İnstitutunda

**Azərbaycanda səfərdə olan Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Covanni Çezare Paqatzi, Vatikan Apostol Kitabxanasının icraçı rəhbəri Mauro Mantovan və Vatikan Apostol Arxivinin icraçı rəhbəri Rokko Ronzani AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda olublar.**



Qonaqları institutun direktoru, akademik Teymur Kərimli qarşılayıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qonaqlara tarixi binanın memarlıq xüsusiyyətləri, elmi müəssisənin fəaliyyət istiqamətləri, burada qorunan zəngin əlyazma fondu, nadir tarixi sənədlər və aparılan elmi-tədqiqat işləri haqqında məlumat verib.

Akademik İsa Həbibbəyli Əlyazmalar İnstitutunun yerləşdiyi binanın 1898-1901-ci illərdə inşa edildiyini və vaxtilə məşhur milyonçu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə Bakı Qızlar Məktəbi kimi fəaliyyətə başladığını, 1918-ci ildə İslam Şərqində ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti binası kimi fəaliyyət göstərdiyini, ölkədə sovet hakimiyyəti qurulduqdan sonra isə burada Azərbaycan SSR Ali Sovetinin yerləşdiyini bildirib.

AMEA rəhbəri burada mühafizə olunan əlyazma və sənədlərin ölkəmizin tarixi və mədəni irsinin öyrənilməsində müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Nümayəndə heyəti institutun saxlanclarını ziyarət edərək, əlyazma sənədlərinin və qədim kitabların qorunma şəraiti ilə tanış olublar, nadir nüsxələrə və tarixi sənədlərə baxış keçiriblər.

Qonaqlar institutun Əlyazmaların gigiyenası, konservasiyası və bərpası laboratoriyasında bərpa və cildləmə prosesini yaxından izləyiblər.

Ziyarət zamanı akademik İsa Həbibbəyli Əlyazmalar İnstitutunda qorunub saxlanılan, dahi şair Nizami Gəncəvinin üzü köçürülmüş qədim əlyazma nüsxəsinin surətini qonaqlara təqdim edib.

Nümayəndə heyətinin üvləri institutun ekspozisiya zalında X-XI əsrlərdə Kordova xilafətində yaşamış böyük ərəb alimi Əbülqasim Zəhravinin "Cərrahiyyə və cərrahi alətlər haqqında", Şərqin dahi mütəfəkkiri İbn Sinanın "Tibb qanunları", XII əsr alimi Rüstəm Cürcaninin "Zəxireyi-Nizamşahi" əsərlərinin əlyazma nüsxələri, eləcə də şairə Xurşidbanu Natəvanın özünün çəkdiyi gül təsvirlərindən ibarət "Gül dəftəri" adlı şeirlər albomu ilə tanış olublar.

Görüşdə Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi, millət vəkili Soltan Məmmədov, həmçinin Mərkəzi Elmi Kitabxananın direktoru Hüseyn Hüseynov, AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq elmi əməkdaşlıq şöbəsinin müdiri Esmira Əlirzayeva, İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri Ağahüseyn Şükürov və başqaları iştirak ediblər.

# Azərbaycan-Albaniya elmi

## AMEA ilə Albaniya Elmlər Akademiyası arasında anlaşma memorandumu imzalanıb



**AMEA-nın Rəyasət Heyətində Azərbaycan Milli Elmlər Akademiyası ilə Albaniya Elmlər Akademiyası arasında anlaşma memorandumunun imzalanma mərasimi keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA-nın Rəyasət Heyətinin üzvləri, AMEA-nın Rəyasət Heyəti aparatının şöbə müdirləri, AMEA-nın elmi müəssisə və təşkilatlarının direktorları, o cümlədən Albaniya Elmlər Akademiyasının prezidenti akademik Skender Gjinushi, Albaniyanın Azərbaycandakı səfiri Besart Kadia, Albaniya Elmlər Akademiyasının üzvü akademik Anastas Angjeli, Xarici əlaqələr və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Elda Zotaj və aidiyyəti şəxslər iştirak ediblər.

Mərasimi giriş sözü ilə açan akademik İsa Həbibbəyli qeyd edib ki, son illərdə AMEA ilə dünyanın aparıcı Elmlər Akademiyaları, elm mərkəzləri və ali təhsil müəssisələri arasında əməkdaşlıq müqavilələri imzalanıb və beynəlxalq elmi təcrübə və yeniliklərin öyrənilməsi daim diqqət mərkəzində saxlanılır. AMEA-nın 80 illik yubiley tədbirləri barədə qonaqlara məlumat verən akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, dövlət başçısının iştirakı ilə keçirilən tədbirdə dünyanın bir çox ölkəsindən nüfuzlu alimlər iştirak ediblər. Vurğulayıb ki, bu gün AMEA qardaş Türkiyə, Çin, Orta Asiya ölkələri, Avropadan İtaliya, Bolqarıstan, Yunanıstan, Polşa, Çexiya, Afrikadan Misir, Tunis və digər ölkələrin akademik qurumları ilə sıx əməkdaşlıq edir. Bundan əlavə, son illərdə Akademiyanın Beynəlxalq Elmi Şuraya, Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasına, Akademiyalararası Tərəfdaşlıq Assosiasiyasına üzv qəbul edildiyini bildirib.

Azərbaycan ilə Albaniya arasında geniş iqtisadi əməkdaşlığın mövcud olduğunu deyən akademik İsa Həbibbəyli son illərdə dövlət başçılarımızın yaxın dostluq münasibətlərinin elmi müstəvidə də əlaqələrin qurulması və genişlənməsinə meydan açdığını söyləyib. Akademik İsa Həbibbəyli albaniyalı mütəxəssislərin iki gün ərzində Akademiyanın institutlarını, kitabxanasını ziyarət etdiklərini və AMEA-nın mövcud potensialı ilə tanış olmaq imkanı qazandıqlarını diqqətə çatdırıb. Qeyd edib ki, Qafqaz Albaniyası tarixinin öyrənilməsi, dilçilik, arxeologiya, əlyazmalar, süni intellekt, rəqəmsal inkişaf və digər bir çox sahələrdə birgə əməkdaşlıq üçün geniş imkanlar var. Bundan əlavə, AMEA-da bir sıra sanballı elmi nəşrlərin işıq üzü gördüyünü deyən akademik İsa Həbibbəyli "AMEA-nın məruzələri" jurnalının bir sayının Albaniyanın tarixi, coğrafiyası, mədəniyyəti və s. həsr olunmasını, eyni zamanda Albaniya Elmlər Akademiyasının nəşrlərindən birinin bir sayının ölkəmizə həsr olunmasını təklif edib.

Səfərin təşkilində göstərdikləri dəstəyə görə Albaniyanın Azərbaycandakı səfiri Besart Kadiaya və Albaniya Elmlər Akademiyasının üzvü akademik Anastas Angjeliyə minnətdarlığını bildirən akademik İsa Həbibbəyli anlaşma memorandumunun akademiyalarımız arasında qarşılıqlı əməkdaşlıq və gələcək birgə layihələr üçün geniş perspektivlər açacağını vurğulayıb.



Sonra çıxış edən Albaniya Elmlər Akademiyasının prezidenti akademik Skender Gjinushi dəvətə görə akademik İsa Həbibbəyliyə minnətdarlığını bildirib. Ölkələrimiz arasında əlaqələrin müsbət dinamikada davam etdiyini diqqətə çatdıran qonaq səfərlərinin məqsədinin elmi istiqamətdə əlaqələrin inkişaf etdirilməsi olduğunu deyib. Albaniya Elmlər Akademiyası barədə məlumat verən Skender Gjinushi qeyd edib ki, hazırda quruculuq prosesi həyata keçirilir, struktur islahatları aparılır. Diqqətə çatdırıb ki, hazırda Albaniya Elmlər Akademiyasında Arxeologiya İnstitutu, Tarix İnstitutu, Dilçilik və Ədəbiyyat İnstitutu, Antropologiya İnstitutu, Ensiklopedik və Albanoloji Nəşrlər Mərkəzi, Biotexnologiya və Genetika Elmi Tədqiqat Mərkəzi və İncəsənət Araşdırmaları Mərkəzi fəaliyyət göstərir, nanotexnologiya, geologiya, süni intellekt, ətraf mühit və su ehtiyatları istiqamətində tədqiqatlar aparılır. Akademik Skender Gjinushi, həmçinin Albaniya Elmlər Akademiyasının ölkədə aparılan bütün elmi tədqiqatların koordinasiyasını həyata keçirdiyini söyləyib, hazırda 37-yə yaxın elmin bütün sahələrini əhatə edən layihənin maliyyələşdirildiyini bildirib.

Xalqlarımızın mədəniyyəti və tarixi arasında bir çox oxşarlıqların olduğunu deyən Skender Gjinushi bu gün imzalanacaq memorandumun akademiyalarımızın gələcək əməkdaşlığı üçün geniş imkanlar açacağını söyləyib.

Mərasimdə çıxış edən Albaniyanın Azərbaycandakı səfiri Besart Kadia yenidən AMEA-da olmaqdan məmnunluğunu dilə gətirib. Qeyd edib ki, bu gün tədbirdə vurğulandığı kimi, ölkələrimiz arasında sıx əlaqələr mövcuddur və bu, elmi müstəvidə də əməkdaşlığımızın genişlənməsinə imkan verir. Gələcək birgə elmi tədqiqatların aparılmasını səbrsizliklə gözlədiyini deyən səfir növbəti görüşün Albaniyada keçirilməsini arzulayıb.

Bakıya artıq ikinci dəfə səfər etdiyini deyən Albaniya Elmlər Akademiyasının üzvü akademik Anastas Angjeli çıxışında vurğulayıb ki, Azərbaycan ilə Albaniyanın geniş elmi potensialı var və cari ilin mart ayında AMEA-ya səfəri zamanı bu potensialdan istifadəyə dair ilkin razılıq əldə olunub və bu gün artıq memorandumun imzalanması mərasimi keçirilir. Akademiyanın elmi müəssisələrini ziyarət etdiyini və bir sıra səmərəli görüşlər keçirdiyini deyən akademik Anastas Angjeli memorandumun şərtlərinin həyata keçirilməsinin birgə elmi əməkdaşlığımızın inkişafına təkan verəcəyini söyləyib.

Tədbirdə çıxış edən AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova qonaqları salamlayıb, rəhbərlik etdiyi Biologiya və Tibb Elmləri Bölməsinin, həmçinin ETN Molekulyar Biologiya İnstitutunun Albaniya Elmlər Akademiyası ilə birgə ətraf mühitin öyrənilməsi, ərzaq təhlükəsizliyi, nadir və nəsli kəsilməkdə olan bitki növlərinin tədqiqi istiqamətində geniş imkanlara malik olduğunu deyib. Bundan əlavə, son illərdə Almaniyanın Osnabruk Tətbiqi Elmlər Universiteti ilə buğdanın yaxşılaşdırılmasına dair birgə tədqiqatlar aparıldığını, Molekulyar Biologiya İnstitutunun dünyanın nüfuzlu Harvard, Kembric, Oksford universitetləri ilə əməkdaşlıq etdiyini, gənc kadrların xaricdə doktorantura təhsilinə göndərildiyini diqqətə çatdırıb.

Çıxışlardan sonra Azərbaycan Milli Elmlər Akademiyası ilə Albaniya Elmlər Akademiyası arasında anlaşma memorandumu imzalanıb. Sənədi akademik İsa Həbibbəyli və akademik Skender Gjinushi imzalayıblar.

Daha sonra qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

Qonaqlar, həmçinin AMEA-nın Rəyasət Heyətinin binası ilə tanış olub, 1926-cı ildə Birinci Türkoloji Qurultayın keçirildiyi Böyük Akt zalını, Meridian zalını, AMEA-TÜBİTAK Koordinasiya Mərkəzini, burada yerləşən "Əziz Sancar şərəf otağı"nı və Akademiya Muzeyini ziyarət ediblər.

## Azərbaycanın zəngin yazılı irsi və qədim əlyazmalara baxış

**Albaniya Elmlər Akademiyasının prezidenti akademik Skender Gjinushinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda olub.**

Nümayəndə heyətini AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev və Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva müşayiət ediblər.

Qonaqları institutun direktoru akademik Teymur Kərimli qarşılayaraq rəhbərlik etdiyi elmi müəssisənin fəaliyyəti, burada qorunan zəngin əlyazma fondu, nadir tarixi sənədlər və aparılan elmi-tədqiqat işləri haqqında ətraflı məlumat verib. Əlyazmalar İnstitutunun Azərbaycan xalqının çoxəsrlik elmi, ədəbi və mədəni irsinin qorunması, öyrənilməsi və dünya elmi ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyət göstərdiyini bildirib.



Akademik Teymur Kərimli Əlyazmalar İnstitutunun təkcə Azərbaycanın deyil, bütövlükdə Şərq sivilizasiyasının zəngin yazılı irsini qoruyan mühüm elm mərkəzlərindən biri olduğunu deyib. Qeyd edib ki, institut Avropa ölkələrinin akademik qurumları ilə qarşılıqlı əlaqələrin inkişafı, ortaq elmi dəyərlərin araşdırılmasında maraqlıdır.

Albaniya Elmlər Akademiyasının prezidenti akademik Skender Gjinushi Əlyazmalar İnstitutunda qorunan zəngin irsi mədəni yaddaşın dəyərli nümunələri kimi qiymətləndirib. Azərbaycan alimlərinin bu irsin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində gördükləri işləri tarixi və mədəni əlaqələrin gücləndirilməsinə xidmət edən təqdirəlayiq fəaliyyət kimi xarakterizə edib.

Görüş zamanı elmi əməkdaşlığın perspektivləri, ortaq tədqiqat layihələrinin həyata keçirilməsi və humanitar elmlər sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyətinin üzvləri institutun ekspozisiya zalları, qədim əlyazmaların gigiyenası, konservasiyası və bərpası laboratoriyası və saxlanclarla tanış olublar, nadir əlyazmalar, qədim kitablar və tarixi sənədlərə baxıblar.

# ELM əlaqələri yeni müstəvidə

## "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda




**Ölkəmizdə səfərdə olan Albaniya Elmlər Akademiyasının prezidenti akademik Skender Gjinushi, Albaniya Elmlər Akademiyasının üzvü akademik Anastas Angjeli və Xarici əlaqələr və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Elda Zotaj "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda olublar.**

Qonaqları AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyev və Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri dosent Esmira Əlirzayeva müşayiət ediblər.

Albaniyalı mütəxəssislər Qoruğun fəaliyyəti barədə məlumat alıb, xatirə şəkilləri çəkdiriblər.

## Nadir ağaclar parkını ziyarət

**Albaniya Elmlər Akademiyasının prezidenti akademik Skender Gjinushinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasında da olub.**




Qonaqlar əvvəlcə AMEA-nın Əsas binası ilə tanış olublar. Onlara binanın memarlıq üslubu, Akademiyanın yaranma və inkişaf tarixi, ölkənin elmi həyatında oynadığı rolu barədə ətraflı məlumat verilib. Nümayəndə heyəti Akademiyanın akt zalına da baxış keçirib.

Sonra qonaqlar Akademiya şəhərciyində salınmış Nadir ağaclar parkını ziyarət ediblər.

AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova parkda becərilən nadir və relikt ağac növləri və parkın elmi-maarifləndirici əhəmiyyəti haqqında ətraflı məlumat verib. Bildirilib ki, park Azərbaycan təbiətinin zənginliyini əks etdirən elmi-ekoloji məkanlardan biridir.

## Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə tanışlıq

**Albaniya Elmlər Akademiyasının prezidenti akademik Skender Gjinushinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunu ziyarət edib.**



Ədəbiyyat İnstitutunun direktor müavini filologiya elmləri doktoru Mehman Həsənli elmi müəssisənin fəaliyyət istiqamətləri, Azərbaycan ədəbiyyatının fundamental tədqiqi və dünya ədəbi əlaqələrinin araşdırılması və humanitar elmlərin inkişafına verdiyi töhfələr barədə qopnaqlara məlumat verib.

Sonra nümayəndə heyəti institutun Çin Tədqiqatları Mərkəzi ilə yaxından tanış olub.

İnstitutun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri professor Bədirxan Əhmədov mərkəzin fəaliyyəti haqqında məlumat verərək Azərbaycan və Çin ədəbiyyatlarının qarşılıqlı təsiri, ortaq tarixi-mədəni əlaqələrin araşdırılması, eləcə də Çin Xalq Respublikasının müxtəlif elm və təhsil müəssisələri ilə qurulan əməkdaşlıq münasibətlərindən danışıb.

Sonra qonaqlar institutda fəaliyyət göstərən Mehmet Akif Ərsoy adına Türkiyə Ədəbiyyatı Mərkəzini də ziyarət ediblər. Mərkəzin müdiri filologiya elmləri doktoru Eşqanə Babayeva türk ədəbiyyatının tanıdılması, ortaq ədəbi-mədəni irsin öyrənilməsi və Azərbaycan-Türkiyə elmi əlaqələrinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən işlərdən bəhs edib.

Görüş zamanı humanitar elmlər sahəsində beynəlxalq əməkdaşlığın perspektivləri, ortaq elmi layihələr və akademik əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

## Mərkəzi Elmi Kitabxanada

**Albaniya Elmlər Akademiyasının prezidenti akademik Skender Gjinushi, Albaniya Elmlər Akademiyasının üzvü akademik Anastas Angjeli və Xarici əlaqələr və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Elda Zotaj AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) qonağı olublar.**




Nümayəndə heyətini AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev və Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri dosent Esmira Əlirzayeva müşayiət ediblər.

Qonaqları qarşılayan MEK-in direktoru texnika elmləri doktoru Hüseyn Hüseynov onları kitabxanada görməkdən məmnunluğunu ifadə edib. Direktor Mərkəzi Elmi Kitabxananın tarixi, fəaliyyət istiqamətləri və zəngin kitab fondları, son dövrlərdə burada aparılan elektron islahatlar haqqında məlumat verərək qonaqları kitabxana ilə yaxından tanış olmağa dəvət edib.

MEK-lə tanışlıq Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş qəhrəmanlarımızın, qazilərimizin və Milli Qəhrəmanlarımızın xatirəsini əbədiləşdirən, kitabxana sistemində ilk və unikal olan Qarabağ müharibəsi qəhrəmanları fondundan başlayıb. H. Hüseynov bildirib ki, fondda Birinci Qarabağ müharibəsinə, 44 günlük Vətən müharibəsinə, eləcə də antiterror tədbirlərinə həsr olunmuş rəsmi sənədlər, kitablar, qəzet və jurnal materialları, qəhrəmanlarımızın döyüş yolunu əks etdirən fotolar, şəxsi əşyalar və onların xatirəsinə həsr edilmiş əsərlər sistemli şəkildə toplanır.

Daha sonra MEK-də fəaliyyət göstərən Diplomatik Fondla tanış olan qonaqlara bildirilib ki, burada xarici ölkələrin səfirlikləri və beynəlxalq təşkilatlar tərəfindən kitabxanaya hədiyyə olunmuş qiymətli nəşrlər, həmçinin müxtəlif ölkələrin mədəniyyət guşələri cəmləşdirilib.

Ziyarətçilərə, həmçinin Nadir kitablar fondunda mühafizə olunan qiymətli nəşrlər də nümayiş etdirilib. Qeyd olunub ki, Azərbaycan kitabxana sistemində XVI əsrə aid ən qədim kitab məhz bu fondda qorunur. Buradakı ən iri kitab - 1893-cü ildə Londonda ingilis dilində nəşr olunmuş "Ərdəbil məscidinin müqəddəs xalçaları", eləcə də fondun ən miniatür kitabı hesab edilən Yanka Kupalanın "Şeirlər" məcmuəsi, üzəri firuzə qaşlarla bəzədilmiş, kənarları qızıl suyuna salınmış və dəridən hazırlanmış nəfis tərtibatlı nəşr xarici qonaqların xüsusi marağına səbəb olub.

MEK-in Heydər Əliyev və Azərbaycan dövlətçiliyi şöbəsində nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin zəngin irsini və Azərbaycan dövlətçiliyinin inkişaf tarixini əks etdirən nəşrlərlə tanış olub, Albaniya Elmlər Akademiyasının prezidenti, akademik Skender Gjinushi Xatirə kitabına ürək sözlərini yazıb. O, Mərkəzi Elmi Kitabxanada qorunan zəngin elmi və mədəni irsin yüksək təəssürat yaratdığını, kitabxananın müasir fəaliyyəti və fondlarının diqqətəlayiq olduğunu bildirib.

Sonda MEK-in Heydər Əliyev və Azərbaycan dövlətçiliyi şöbəsi tərəfindən hazırlanan "Heydər Əliyevin aforizmləri" adlı audiodisk nümayəndə heyətinə hədiyyə olunub.

# AMEA Rəyasət Heyətinin genişləndirilmiş iclasında

## *Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu əməkdaşlarının 2026-cı ilin birinci yarısında həyata keçirdikləri elmi fəaliyyətin bal sistemi əsasında rəqəmsal qiymətləndirilməsinə dair hesabatı dinlənilib*

**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin genişləndirilmiş iclası keçirilib.**



Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, eləcə də AMEA-nın Rəyasət Heyəti aparatının şöbə müdirləri, elmi müəssisə və təşkilatların direktorları və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları iştirak ediblər.

İclasda müzakirə edilən ilk məsələ Azərbaycan Respublikası Prezidentinin "Lətif Kərimovun 120 illiyinin qeyd edilməsi haqqında" 30 aprel 2026-cı il tarixli Sərəncamının icrası ilə bağlı AMEA-nın Tədbirlər planının təsdiq edilməsi barədə olub.

Məsələ ilə bağlı çıxış edən akademik İsa Həbibbəyli qeyd edib ki, dövlət başçısının Sərəncamında Azərbaycan Milli Elmlər Akademiyasına da müvafiq tapşırıq verilib və AMEA-nın Rəyasət Heyətinin 25 may tarixli iclasında Lətif Kərimovun 120 illiyi ilə bağlı AMEA-nın Tədbirlər planının hazırlanması məqsədilə Akademiyanın elmi bölmə, müəssisə və təşkilatlarına təkliflərin təqdim edilməsi tapşırılıb.

Akademik İsa Həbibbəyli görkəmli xalçaşünas, Xalq rəssamı Lətif Kərimovun 120 illiyi ilə bağlı təkliflərin AMEA-nın Rəyasət Heyətinə təqdim olunduğunu bildirib və müzakirələrdən sonra AMEA-nın Tədbirlər planı təsdiqlənib.

İclasda müzakirə olunan növbəti məsələ AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu əməkdaşlarının 2026-cı ilin birinci yarısında həyata keçirdikləri elmi fəaliyyətin bal sistemi əsasında qiymətləndirilməsinə dair hesabatı olub.

Məsələ ilə bağlı çıxış edən akademik İsa Həbibbəyli bildirib ki, Akademiyanın 80 illik tarixində ilk dəfə olaraq AMEA-nın Rəyasət Heyətinin iclasında elmi müəssisələrdən birinin hesabatı təqdim olunur. Qeyd edib ki, Akademiyada elmi işçilərin fəaliyyətinin qiymətləndirilməsinin yeni metodla, bal sistemi əsasında həyata keçirilməsi nəzərdə tutulur. Akademik İsa Həbibbəyli bu istiqamətdə ilkin müzakirələrin AMEA-nın Rəyasət Heyətində keçirilən müşavirədə və Rəyasət Heyətinin ötən iclasında aparıldığını xatırladaraq, prosesin mərhələli şəkildə inkişaf etdirilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

Bu gün kağız daşıyıcılarını elektron resursların əvəzlədiyini qeyd edən AMEA rəhbəri dünyada və ölkəmizdə gedən tendensiyalara uyğun olaraq, elektronlaşmanın zəruriliyinə toxunub. Diqqətə çatdırıb ki, 2027-ci ildə Akademiyada elmi fəaliyyətin bal sistemi ilə qiymətləndirilməsinə keçid planlaşdırılır və həmin dövrədək elmi işçilər üçün maarifləndirmə işləri həyata keçiriləcək.

Bu gün qeyd olunan elmmetrik qiymətləndirmə metodundan Qazaxıstan, Rusiya, Yunanıstan, Polşada geniş istifadə edildiyini bildirən AMEA prezidenti qeyd edib ki, dünya elminin bu istiqamətə doğru yönəldiyini, kağız vasitəsilə təqdim edilən hesabatların kağız üzərində qaldığını, öz aktuallığını itirdiyini, dünyada kağız hesabatlardan sürətli rəqəmsal hesabata keçildiyini söyləyib.

"Elmi işçilərin elmi fəaliyyətini ənənəvi hesabatdan yeni hesabat formatına keçirmək müasir rəqəmsal dövrün çağırışlarına tam uyğundur. Ən yüksək bal toplayanlar, ən yaxşı nəticə göstərənlər həm müvafiq qaydada mükafatlandırılacaq, həm də gələcəkdə institut daxilində müvafiq vəzifələrə vakant yerlərə seçim prosesində ən real namizəd olaraq həmin şəxslərə üstünlük veriləcəkdir. Beləliklə, yeni kadr potensialı formalaşdıracaq və bir növ elmi işçilər gələcək karyeralarını özləri təyin edəcək. Akademiyanın, elmimizin gələcəyini dünyanın gələcəyinə uyğunlaşdırmaq üçün ənənəvi metoddan rəqəmsal çağırışlara uyğun yeni metodologiyaya keçməliyik. Bunun üçün müzakirələrin təşkil olunması olduqca əhəmiyyətlidir. Məqsədimiz yeni modeli nümayiş etdirməklə, əməkdaşların onunla yaxından tanış olmasını və bu barədə dəyərli təklif və fikirlərini bölüşmələri üçün münbit şərait yaratmaqdır. Bu model Akademiyada aparılan islahatların məntiqi davamı, köklü, və əsaslı islahatıdır", - deyə akademik İsa Həbibbəyli diqqətə çatdırıb.

Sonra AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər, rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini filologiya elmləri doktoru Mehman Həsənli institut əməkdaşlarının elmi fəaliyyətinin 2026-cı ilin birinci yarısına dair yeni bal sistemi əsasında hazırlanmış hesabatını təqdim edib. Qeyd edib ki, hesabat şöbələr üzrə fərdi hesabat blankı və qovluğu ilə datanın toplanması, həmin datanın analitik qrup tərəfindən yoxlanılması və balların təyini mərhələlərindən keçməklə hazırlanıb.

Diqqətə çatdırıb ki, elmi fəaliyyətin bal sistemi ilə qiymətləndirilməsinin əsasını 4 istiqamət - akademik jurnallarda məqalə nəşri, kitab çapı, beynəlxalq və respublika səviyyəli elmi konfrans materialları, eləcə də elmin populyarlaşmasında iştirak təşkil edir.

Məruzəçinin sözlərinə görə, akademik jurnallarda məqalə çapı "Web of Science" və ya "Scopus" bazasında, digər beynəlxalq bazalarda ("Dergipark", "Copernicus", "ERIH Plus" və digər), "Google scholar"da indekslənən, yaxud indekslənməyən xarici jurnallarda və s. məqalə üçün qiymətləndirilib.

Kitab nəşri isə monoqrafiya, tərtib işi, broşür, məqalələr toplusu, tərcümə və s. üzrə dəyərləndirilib.

M.Həsənli vurğulayıb ki, elmi işçilərin beynəlxalq və respublika elmi konfranslarında məruzə materiallarına görə fəaliyyəti qiymətləndirilib.

Elmin populyarlaşmasında iştiraka gəldikdə isə, elmi, elmi-kütləvi tədbirlərdə çıxış, dövri qəzet, jurnal, elektron mediada məqalə nəşri, televiziya kanalları və radio verilişlərində çıxış, dissertasiya və jurnal məqalələrinə rəylər və s. kimi amillərin nəzərə alındığını bildirib.

Mehman Həsənli daha sonra qeyd olunan yeni bal sistemi əsasında Ədəbiyyat İnstitutunun əməkdaşlarının elmi fəaliyyət göstəricilərini cədvəllər əsasında təqdim edib.

Qeyd edib ki, təqdim olunan yeni bal sistemi akademik İsa Həbibbəylinin təşəbbüsü və təklifləri əsasında hazırlanıb və ictimai müzakirələrdən sonra müvafiq dəyişikliklərin aparılması da nəzərdə tutulur.

Hesabat dinlənildikdən sonra məruzə ətrafında geniş müzakirələr aparılıb. Müzakirələrdə akademik Rasim Əliquliyev, akademik İradə Hüseynova, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli, filologiya elmləri doktoru Hikmət Quliyev, texnika elmləri doktoru Hüseyn Hüseynov, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev, filologiya elmləri doktorları Yaşar Qasımov, Gülər Abdulabəyova, İslam Qəribli, Asif Rüstəmli, biologiya elmləri doktoru Tubuxanım Qasımzadə və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

Daha sonra çıxış edən akademik İsa Həbibbəyli yeni bal sisteminin dünya təcrübəsi əsasında hazırlandığını bildirib. Qeyd edib ki, təklif olunan model 4 əsas bölmə üzrə hazırlanıb və onun alt meyarlarının hazırlanması da nəzərdə tutulub. AMEA rəhbəri vurğulayıb ki, yeni bal sistemi institutlara göndəriləcək və onların təklifləri İşçi və Ekspert qrupları tərəfindən yoxlanıldıqdan sonra yekun qərar veriləcək.

Qeyd olunanları nəzərə alaraq, AMEA-nın Rəyasət Heyəti tərəfindən elmi fəaliyyətin bal sistemi əsasında qiymətləndirilməsini təmin etmək məqsədilə İşçi və Ekspert qrupları yaradılıb, elmi müəssisələrin öz təkliflərini sentyabr ayına qədər təqdim etmələri tapşırılıb.

Daha sonra Birinci Türkoloji Qurultayın 100 illiyi ilə bağlı Türk Dünyası Həftəsi çərçivəsində keçiriləcək tədbirlərə AMEA-nın hazırlığının cari vəziyyəti müzakirə olunub. Akademik İsa Həbibbəyli bildirib ki, 29 iyun - 4 iyul tarixlərində keçiriləcək tədbirlərdə Türk dünyasının görkəmli simaları, elm xadimləri, ali təhsil müəssisələrinin rəhbərləri iştirak edəcək. Bu tədbirlər çərçivəsində Birinci Türkoloji Qurultayın keçirildiyi AMEA-nın Rəyasət Heyətinin binasında da "Türk dünyası və beynəlxalq əlaqələr", "Rəqəmsal türkologiya", "Türkoloji sənətşünaslıq" və "Türkoloji folklorşünaslıq" mövzularında panel müzakirələrin təşkil olunacağını diqqətə çatdırıb.

Prezident İlham Əliyevin "Türk dünyası bizim ailəmizdir", - sözlərini xatırladan akademik İsa Həbibbəyli dövlət başçısının "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamının həm Azərbaycanı türkologiya elminin mərkəzlərindən birinə çevirdiyini, həm də 100 il əvvəl keçirilmiş Birinci Türkoloji Qurultayın iştirakçılarının xatirəsinə ehtiramın real ifadəsi olduğunu deyib.

Akademik İsa Həbibbəyli AMEA-da Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə Türk Dünyası Həftəsi çərçivəsində keçiriləcək tədbirlərin yüksək səviyyədə təşkili ilə bağlı müvafiq tapşırıqlarını verib.

Sonda bir sıra cari məsələlər müzakirə olunub.

# AMEA-da ortaq tarixi irsin araşdırılması fəaliyyəti genişlənir

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli İraq Parlamentinin deputatı Ərşad Saleh və Pakistanın MUSLİM İnstitutunun direktor müavini Asif Tanver Avanla görüşüb.**



AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə AMEA-nın vitse-prezidenti v.i.e, akademik Gövhər Baxşəliyeva, Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri dosent Esmira Əlirzayeva, Ədəbiyyat İnstitutunun şöbə müdiri professor İmamverdi Həmidov, Şərqşünaslıq İnstitutunun Rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini dosent Elnur Mustafayev və digər nümayəndələr iştirak ediblər.

Görüşdə akademik İsa Həbibbəyli tarixi-mədəni köklərə əsaslanan əlaqələrin əhəmiyyətindən bəhs edib. Kərkükün coğrafi baxımdan Türkiyədən çox, məhz mənəvi və etnik-mədəni tellərlə Azərbaycana bağlılığını xüsusi qeyd edərək, bu bağlılığın əsrlər boyu qorunub saxlanıldığını diqqətə çatdırıb.

Akademik Kərkük xalqının Azərbaycan üçün doğma və qardaş xalq olduğunu vurğulayaraq bildirib ki, hazırda AMEA-da Kərkükün tarixi, zəngin ədəbiyyatı və folkloru ilə bağlı araşdırmalar uğurla davam etdirilir. Akademiyanın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda, Folklor İnstitutunda və akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda bu istiqamətdə dərin tədqiqat işləri aparılır, dəyərli elmi əsərlər dərc olunur və birgə beynəlxalq konfranslar təşkil edilir.

Dahi şair Məhəmməd Füzuli irsinin bəşəri əhəmiyyətinə diqqət çəkən AMEA rəhbəri, ustad sənətkarın irsinin tədqiqi istiqamətində Azərbaycan və Kərkük alimləri arasında səmərəli əlaqələrin qurulduğunu bildirib. O, Füzulinin həm Kərkükdə, həm də Pakistanda böyük rəğbətlə tanındığını və sevildiyini, həmçinin türkman alimlərinin İmadəddin Nəsimi irsi ilə bağlı tədqiqatlar apardığını deyib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Azərbaycan bu gün dünya füzulişünaslığının və nəsimişünaslığının əsas elmi mərkəzi statusunu daşıyır. Eyni zamanda bildirilib ki, türkman və Azərbaycan tədqiqatçıları Füzuli poeziyası ilə klassik türkman ədəbiyyatının nümayəndələri, xüsusilə Məhtimqulu Fəraqi yaradıcılığı arasında paralellər aparır, həmçinin tanınmış kərkük ədəbiyyatşünası Əta Tərzibaşının irsini dərindən öyrənirlər.

AMEA prezidenti, həmçinin tanınmış kərkükli tədqiqatçı, şair və yazıçı Şəmsəddin Kuzəçi ilə keçirdiyi görüşləri xatırladıb.

Akademik İsa Həbibbəyli Azərbaycanla Pakistan arasındakı dostluq və qardaşlıq əlaqələrindən də bəhs edib. 2024-cü ildə AMEA-da Məhəmməd Füzuli və Sultan Baho yaradıcılığına həsr olunmuş "Məhəmməd Füzuli və Sultan Baho: Azərbaycan və Pakistan ədəbiyyatındakı ədəbi əlaqələr" mövzusunda elmi konfransın keçirildiyini və bu tədbirin iki ölkənin ədəbi mühitini bir-birinə daha da yaxınlaşdırdığını diqqətə çatdırıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən İraq Parlamentinin deputatı Ərşad Saleh Azərbaycan və türkman eli arasında əlaqələrin yeni bir inkişaf mərhələsinə qədəm qoyduğunu deyib. O, ortaq tarixi dəyərlərimizi və adət-ənənələrimizi xalqlarımızı bizi bir-birinə bağlayan qırılmaz mənəvi körpü olaraq xarakterizə edib.

Kərküklü deputat İraqda ən çətin və mürəkkəb tarixi dönəmlərdə belə türkman dilini, mədəniyyətini və kimliyini böyük fədakarlıqla qoruyub saxladıqlarını bildirib. Deputat vurğulayıb ki, türkman və Azərbaycan alimləri ortaq mədəni-tarixi dəyərlərə dair müştərək araşdırmaları daha da genişləndirməlidir.

Ərşad Saleh bu məqsədlə Məhəmməd Füzuli yaradıcılığına dair növbəti ortaq elmi konfransın keçirilməsi təşəbbüsünü irəli sürüb. O, həmçinin Azərbaycanla tələbə mübadiləsi sahəsində uğurlu fəaliyyətin mövcudluğunu önə çəkərək, gələcəkdə AMEA ilə doktorantura səviyyəsində gənc kadrların mübadiləsinin təşkilində və bu istiqamətdə birgə addımların atılmasında maraqlı olduqlarını bildirib.

Görüşdə professor İmamverdi Həmidov ərəbdilli mənbələrdə Azərbaycan mədəniyyətinə və elminə aid zəngin məlumatları araşdırdığını qeyd edib.

Sonra dosent Elnur Mustafayev Şərqşünaslıq İnstitutunda İraq-türkman irsinin öyrənilməsi istiqamətində görülən işlərdən danışıb.

Pakistanın MUSLİM İnstitutunun direktor müavini Asif Tanver Avan isə öz çıxışında ölkələrimizin müxtəlif strateji sahələrdə, xüsusən də elm və təhsil istiqamətində uğurlu əməkdaşlığının böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, AMEA ilə qurulan sıx əlaqələrin sayəsində nümayəndə kimi Azərbaycanda daha çox tanındıqlarını qeyd edib. Qonaq Azərbaycana olan sevgisini şeirlərlə ifadə edib.

Asif Tanver Avan yaxın vaxtlarda Pakistanda Sultan Baho irsinə dair çap olunacaq yeni kitabın həm Bakıda, həm də Pakistanda təntənəli təqdimat mərasiminin keçiriləcəyini bildirib və akademik İsa Həbibbəylini həmin təqdimatlara dəvət edib.

Sonda xatirə şəkli çəkilib, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qonaqlara Qarabağa aid nəfis tərtibatlı kitablar hədiyyə edib.

# Əcəmi Naxçıvani: Naxçıvan memarlıq məktəbi və ənənələri

## Respublika elmi konfransı

**Naxçıvan Şəhər İcra Hakimiyyətində "Şəhərsalma və Memarlıq İli" və Əcəmi Naxçıvaninin 900 illiyi çərçivəsində "Əcəmi Naxçıvani: Naxçıvan memarlıq məktəbi və ənənələri" mövzusunda respublika elmi konfransı keçirilib.**

Konfrans AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Naxçıvan Dövlət Universitetinin tərəfdaşlığı ilə baş tutub.

Əvvəlcə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüblər. Heydər Əliyev Muzeyində qonaqlara Ulu Öndərin zəngin dövlətçilik irsi, çoxşaxəli siyasi fəaliyyəti və ömrünün Naxçıvan mərhələsinə dair materiallar barədə ətraflı məlumat verilib.

Daha sonra görkəmli memar Əcəmi Naxçıvaninin həyatı və yaradıcılığına həsr olunmuş sərgiyə baxış keçirilib.

Konfrans Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Konfransda açılış nitqi ilə çıxış edən AMEA-nın Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev qonaqları salamlayaraq konfransın işinə uğurlar arzulayıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli "Əcəmi irsi" adlı məruzəsində Prezident İlham Əliyevin "Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında" 30 dekabr 2025-ci il tarixli Sərəncamının elmi əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Sərəncam böyük memarlıq məktəbi yaratmış görkəmli şəxsiyyətin irsinə verilən yüksək qiymətin ifadəsi olmaqla bərabər, həm də Əcəmi irsinin yenidən öyrənilməsi və tədqiqinə mühüm istiqamət verir.



Akademik qeyd edib ki, Əcəmi Naxçıvani dahi memar olmaqla bərabər, həm də mahir nəqqaş, rəssam, xəttat və dəqiq elmlərə dərindən bələd olan universal bir riyaziyyatçı dühasına sahib idi. Məhz bu səbəbdən, onun formalaşdırdığı bənzərsiz üslub geniş bir coğrafiyaya yayılaraq Türkiyə, İran, Səmərqənd və Hindistan memarlığına ciddi təsir göstərib.

Möminə xatun türbəsinin müsəlman Şərqi intibahının şah əsəri kimi XII əsrdə qadına, anaya verilən ali dəyərin simvolu olmaqla yanaşı, bütövlükdə Əcəmi irsinə hakim olan humanizm prinsiplərini özündə ehtiva etdiyini deyən akademik İsa Həbibbəyli bu sənət incisini memarlığımızın dəyərli və möhtəşəm bir sənət zirvəsi kimi xarakterizə edib.

Akademik İsa Həbibbəyli AMEA Naxçıvan Bölməsinə hədiyyə etdiyi görkəmli Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi ilə Əcəmi Naxçıvaninin simvolik görüşünü əks etdirən qrafik portreti İsmayıl Hacıyevə təqdim edib.

AMEA Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev "Əcəmi Naxçıvani: həyatı, mühiti və sənəti" adlı məruzəsində bildirib ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə memarın 850 illik yubileyi hələ 1976-cı ildə Azərbaycanda təntənəli şəkildə qeyd olunub. Naxçıvan memarlıq məktəbinin əsasını qoyan Əcəminin yaradıcılığının inciləri sayılan Yusif Küseyir oğlu və Möminə xatun türbələri bu gün də dünya memarlığının seçilən nümunələridir deyə akademik qeyd edib.

Vurğulanıb ki, böyük memar Əcəmi Naxçıvaninin zəngin həyat və yaradıcılığı, gələcək nəsillərə miras qoyduğu bənzərsiz sənət inciləri ona şöhrət qazandırıb. Təsadüfi deyil ki, ustad sənətkarın irsi hər zaman yerli və xarici tədqiqatçıların, eləcə də fundamental elmlərlə məşğul olan alimlərin diqqət mərkəzində olub, bu istiqamətdə olduqca sanballı monoqrafiyalar ərsəyə gətirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Naxçıvanda şəhər mədəniyyətinin inkişafında Əcəmi sənətinin rolu" adlı məruzəsində dahi memarın yubileyinin həm dövlət, həm də YUNESKO səviyyəsində qeyd edildiyini diqqətə çatdırıb. Bildirib ki, Əcəmi Əbubəkir oğlu Naxçıvani Azərbaycanın, bütövlükdə Türk-İslam mədəniyyətinin çox böyük qurucularından biridir. Memar Əcəmi irsinin həmişə yeni, müasir olduğunu qeyd edən rektor bildirib ki, universitetdə tələbələr üçün Əcəmi Naxçıvani adına təqaüd təsis olunub, Əcəmi Naxçıvaninin abidəsi Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin qarşısında ucaldılıb, həmçinin universitetdə Memar Əcəmi adına Yaradıcılıq Mərkəzinin yaradılması planlaşdırılır.

Elbrus İsayev ölkə başçısının müvafiq sərəncamlarının Naxçıvan mədəniyyətinə və onun dahi şəxsiyyətlərinə verilən yüksək qiymətin təzahürü olduğunu bildirib. O, həmçinin bu konfransın Memar Əcəmi irsinin tədqiqinə və ustadın xatirəsinə mühüm bir töhfə olduğunu vurğulayıb.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə "Əcəmi Naxçıvaninin yaradıcılığı dünya memarlığında" adlı məruzəsində Əcəmi yaradıcılığında sənətkarın ornament kompozisiyalarında bədiiliklə riyazi təfəkkürün unikal vəhdətini təhlil edib. O, Əcəmi Naxçıvani yaradıcılığından təsirlənərək ucaldılan, memarlıq baxımından əhəmiyyətli komplekslər, tarixi abidələr haqqında məlumat verib.

Professorun məruzəsində Əcəmi yaradıcılığının təhlili təfərrüatı ilə vizual şəkildə diqqətə çatdırılıb. Ərtegin Salamzadə akademik İsmayıl Hacıyevə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi və ustad memar Əcəmi Naxçıvaninin görüşünü əks etdirən dəyərli sənət əsəri hədiyyə edib.

AMEA-nın Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Naxçıvan memarlıq abidələrinin Türkiyədə öyrənilməsi və nəşri" başlıqlı məruzəsində bildirib ki, Əcəmi Naxçıvani irsi olduqca geniş bir coğrafiyada böyük təsir gücünə malikdir. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev Naxçıvana səfəri zamanı Möminə xatun türbəsini ziyarət edərək, bu milli memarlıq incisinin gələcək nəsillərə çatdırılması üçün onun bərpa olunması ilə bağlı xüsusi tapşırıqlar vermişdi.

Prezident İlham Əliyevin "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında" müvafiq Sərəncamının mühüm əhəmiyyət daşıdığını qeyd edən professor Əcəmi yaradıcılığını ölməz məktəb adlandırıb.

Konfransın sonunda "Memar Əcəmi" sənədli filminə baxış olub.

Qeyd edək ki, "Əcəmi Naxçıvani: Naxçıvan memarlıq məktəbi və ənənələri" respublika elmi konfransı öz işinə "Əcəmi Naxçıvaninin dövrü, mühiti və irsi", "Əcəmi Naxçıvani irsinə dövlət qayğısı və Möminə xatun türbəsi memarlıq incisi kimi", "Dil, ədəbiyyat, folklor və maddi mədəniyyət nümunələri" və "Əcəmi Naxçıvani irsinin dünya və Yaxın Şərq memarlığına təsiri" adlı bölmə iclasları ilə davam edib.

# "İlandağ" kitabəsinin müzakirəsi

**AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində yerləşən "İlandağ" kitabəsinə həsr edilən tədbir keçirilib.**

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev giriş nitqi ilə çıxış edərək "İlandağ" kitabəsinin Azərbaycan və dünya tarixi üçün mühüm elmi və ictimai əhəmiyyət daşıdığını bildirib.

Akademik İsmayıl Hacıyev bildirib ki, qayaüstü yazı 30 il bundan əvvəl Naxçıvan elmi mühitinə məlum olsa da abidənin yeri dəqiq göstərilməmişdi. AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Vəli Baxşəliyev, Xaraba-Gilan arxeoloji ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli və tədqiqatçı Hüseyn Cəfərov İlandağ ərazisində qaya üzərində Urartu mixi yazılı mətnin yerini aşkar ediblər.

Akademik qayaüstü mixi yazının Naxçıvanın qədim yaşayış məskəni olduğunu, Urartu hökmdarlarının bölgəyə hərbi yürüşləri və Naxçıvanın siyasi prosesləri haqqında dəqiq elmi faktlar təqdim etdiyini qeyd edib. Yazının bəzi saxta iddiaları ifşa edərək, bu yerlərdə qədim türk-azərbaycanlı köklərinin mövcudluğunu beynəlxalq elmi ictimaiyyətə çatdırdığını vurğulayıb.

Abidədə aşınmaların yarandığına yenidən diqqət çəkən akademik aidiyyəti qurumları bununla bağlı tədbirlər görməyə çağırıb.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli çıxışında tədbirin keçirilməsinin aktual məsələnin müzakirəsi, qarşıda duran strateji vəzifələrin




uğurla icrası üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Akademik 2025-2026-cı illərdə AMEA alimlərinin Azərbaycan-Yaponiya birgə elmi ekspedisiyası ilə apardığı birgə arxeoloji qazıntı zamanı Xocavənd rayonundakı qədim Tağlar mağarasından neandertal insanın 80 min il bundan əvvələ aid olan yeni poleontropoloji qalığının tapılmasının, Naxçıvan Muxtar Respublikasında tapılmış "İlandağ" kitabəsinin Urartu mixi yazıları kontekstində araşdırılmasının Azərbaycan elmi üçün beynəlxalq əhəmiyyətini vurğulayıb.

AMEA-nın prezidenti İsa Həbibbəyli "İlandağ" kitabəsini müstəqil Azərbaycan elminin ən böyük nailiyyəti kimi dünya elminə verə biləcəyi kəşflərdən biri hesab etdiyini qeyd edib. Bu məsələyə qlobal müstəvidə yanaşmağın vacibliyinə diqqət çəkən akademik mühüm elmi əhəmiyyətə malik olan mixi yazının yenidən tədqiqata cəlb edilməsinin vacibliyini bildirib və müvafiq tapşırıqlar verib.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev qeyd edib ki, Bakı Dövlət Universitetində arxeologiya istiqamətində elmi tədqiqatları genişləndirmək və elm ilə təhsilin inteqrasiyasını gücləndirmək məqsədilə Arxeologiya Tədris-Tədqiqat Mərkəzi yaradılıb. Mərkəzin AMEA Arxeologiya və Antropologiya İnstitutu ilə sıx əməkdaşlıq çərçivəsində fəaliyyət göstərdiyini bildirən rektor AMEA Naxçıvan Bölməsi ilə də əməkdaşlığa hazır olduqlarını bildirib.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova çıxışında gələcəkdə də belə tədqiqatların genişləndirilməsinin vacibliyini qeyd edib və bu sahədə gənc kadrların, mütəxəssislərin hazırlanmasının əhəmiyyətini vurğulayıb.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev "Naxçıvanın qədim tarixinə dair mənbə: "İlandağ" kitabəsi" adlı məruzəsində "İlandağ" kitabəsinin Naxçıvanın qədim tarixini öyrənmək baxımından mühüm elmi mənbə olduğunu bildirib. Urartuların Naxçıvana hücumlarının uğursuz olduğunu qeyd edən professor Urartu dilinin iltisaqi dillər qrupuna aid olduğunu, digər dillərlə heç bir əlaqəsi olmadığını vurğulayıb.

AMEA-nın Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov, AMEA Arxeologiya və Antropologiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru Vəfa Mahmudova, AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov, AMEA Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli mövzu ilə bağlı çıxış ediblər.

Tədbirdə AMEA Naxçıvan Bölməsi əməkdaşlarının Culfa rayonu ərazisində yerləşən kitabə ilə tanış olduqları, eyni zamanda Naxçıvan televiziyasının "İlandağ" kitabəsi ilə bağlı hazırladığı videoçarx nümayiş etdirilib.

Tədbirə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli yekun vurub.

# "Türkologiya" jurnalının yeni nömrəsi Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilib

**"Türkologiya" jurnalının 2026-cı il üzrə ilk nömrəsi işıq üzü görüb.**




Jurnalın bu nömrəsi əsasən Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş elmi araşdırmaları özündə birləşdirir. "Birinci Türkoloji Qurultay - 100" bölməsində Azərbaycan və Türkiyədən olan alimlərin qurultayın tarixi, elmi əhəmiyyəti, iştirakçıları və türkoloji fikrin inkişafındakı rolu ilə bağlı məqalələri yer alıb.

Bölmədə AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin "Birinci Türkoloji Qurultayın qurucuları, dərsləri və müasirlik" sərlövhəli məqaləsi yer alıb. Akademik Nizami Cəfərov isə "Dağıstan və Şimali Qafqaz türkləri Birinci Türkoloji Qurultayda" mövzusunda araşdırmasını təqdim edib.

Professor Nadir Məmmədlinin "Birinci Ümumittifaq Türkoloji Qurultayı məxfi arxiv sənədlərində" sərlövhəli məqaləsində qurultayın indiyədək geniş ictimaiyyətə məlum olmayan arxiv materialları tədqiq olunub. Professor Mahirə Hüseynova isə Anadolu-Balkan türkləri ədəbiyyatının araşdırılmasını Birinci Türkoloji Qurultay kontekstində təhlil edib.

Türkiyəli alim Mustafa Önerin "1926 Bakı Türkoloji Qurultayında Türkiyə heyəti" məqaləsi qurultayda iştirak edən Türkiyə nümayəndələrinin fəaliyyətinə işıq salır.

Rüfət Rüstəmovun "Birinci Türkoloji Qurultayın tarixi və elmi əhəmiyyəti", Baba Məhərrəmlinin "Bəkir Çobanzadə və Birinci Türkoloji Qurultay", Şəlalə Ana Hümmətlinin "Birinci Türkoloji Qurultayın "Bülleten"ləri: məxəzlərdə qalan izlər" və Namiq Əhmədovun "Sovet ideoloji məkanı və "Kommunist" qəzetində Birinci Türkoloji Qurultay diskursu" adlı məqalələri də xüsusi maraq doğurur.

Jurnalda, həmçinin Azər Turanın Əli bəy Hüseynzadənin qurultaydakı məruzəsi, həmin günlərdə yazdığı gündəlik qeydlər və Menzelin "Birinci Türkoloji Qurultay" kitabında onun haqqında yer alan fikirlərə həsr etdiyi araşdırması dərc olunub.

"Resenziya" bölməsində Şəlalə Ana Hümmətlinin professor Nadir Məmmədlinin "1926-cı il Birinci Türkoloji Qurultay: tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda" kitabına dair, İmanyar Quliyevin isə Elbrus Əzizovun "Türkoloji dilçilik məsələləri" əsərinə həsr olunmuş resenziyaları yer alıb.

"Elmi həyat" rubrikasında xronika materialları təqdim olunub, "Personalia" bölməsi isə görkəmli türkoloq-alim Vladimir Qordlevskinin anadan olmasının 150 illiyinə həsr edilib.

"Türkologiya" jurnalının baş redaktoru professor Nadir Məmmədlidir. Jurnalın yeni sayı Birinci Türkoloji Qurultayın zəngin elmi irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

# Tokio Universiteti analizləri təsdiqlədi: Şəki xan sarayının tarixi yenidən yazılır

**Şəki xan sarayının yerləşdiyi ərazinin tarixinin indiyədək düşünüldüyündən xeyli qədim olduğu elmi cəhətdən təsdiqlənib.**



Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi ilə AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun birgə əməkdaşlığı çərçivəsində 2023-2025-ci illərdə Şəki şəhərində yerləşən "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində, Şəki xan sarayının ətrafında aparılan arxeoloji qazıntılar Azərbaycanın orta əsrlər tarixinin öyrənilməsi baxımından mühüm nəticələr verib.

Arxeoloji tədqiqatlara AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri tarix üzrə fəlsəfə doktoru arxeoloq Valeh Ələkbərov rəhbərlik edib. Qazıntılar zamanı aşkar edilmiş müxtəlif arxeoloji laylardan götürülən kömür nümunələri dünyanın ən nüfuzlu elmi mərkəzlərindən biri olan Yaponiya Tokio Universiteti Muzeyinin Radiokarbon Tarixləndirmə Laboratoriyasında (Laboratory of Radiocarbon Dating, The University Museum, The University of Tokyo) yüksək dəqiqlikli AMS Radiokarbon (C14) analizinə cəlb olunub.

